www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 iyun 2015-ci il Çərşənbə axşamı № 140 (6168) Qiyməti 40 qəpik

**Xəbər**

## "Dostluq parkı" ilə bağlı yeni həbslər

yazısı səh.5-də

**Gündəm**

### Abbas Abbasov doğmalarını çıxılmaz vəziyyətə salıb



Sabiq vitse-primyerin deputat oğlunun da həbs edilə biləcəyi deyilir

yazısı səh.6-da

### 13 saylı həbsxanada məhbuslar su üzünə həsrət qalıb

yazısı səh.3-də

### Nəqliyyat Nazirliyinin incitdiyi iş adamı aclığa başladı

yazısı səh.6-da

### Avropa Oyunları bitdi, şəhər nəqliyyatı əvvəlki "sifətinə" qayıdacaq?

yazısı səh.10-da

### Emin Hüseynov müəmması davam edir; RATİ niyə məhkəməyə verilib?

yazısı səh.3-də

### Rusiya Ermənistana kredit, yoxsa silah verdi...

yazısı səh.15-də

### Rizvan Vahabovla çəkişən 7 vətəndaş Ali Məhkəmənin verəcəyi qərarı gözləyir

yazısı səh.12-də

### Bu gün kompüterinizi 5 dəqiqəlik söndürün, yoxsa...

yazısı səh.15-də

### İranın nüvə sazişi daha 6 ay ləngiyə bilər

yazısı səh.13-də

### Tanınmış meyxanaçı Vahid Qədim axtarışa verildi

yazısı səh.14-də

**Ramazan ayının 13-cü günü**

İftar 21.31. İmsaq (azan) 4.43 (QMİ-nin cədvəli)

13-cü günün duası: "İlahi, məni bu gün çirkin əməl və pis işlərdən pak et! Belə bir gündə qarşımıza çıxan hər bir asan və ya çətin işə qarşı səbir və dözüm ver! Məni təqvalı və yaxşı insanlarla yoldaşlıq etməyə müvəffəq et! Ey yoxsulların Gözünün İşığı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Oyunlar bitdi - hakimiyyətdə dəyişiklik zamanı çatdı

# PREZİDENTİN "YOL XƏRİTƏSİ": SİYASİ İSLAHATLARA START VERİLİR

Qərb Azərbaycanı yanında görmək istəyir, amma onun rəsmi Bakını yanına çəkmək istəkləri də Rusiyanın siyasəti qədər kobuddur, üstəlik, Qarabağ məsələsində şantaj siyasəti yürüdür; hakimiyyətin yalnız bir optimal yolu qalır...



yazısı səh.5-də

## Kremldən İrəvana Qarabağ şantajı - Bakı üçün yeni fürsət?

Rusiya işğalçı ölkəni işğal da edə bilər; bunun üçün hərbi müdaxiləyə lüzum yox - Gümrüdəki baza yetərlidir; şimaldan gələn "7 rayon vədi"nə inanmaq olarmı...

yazısı səh.9-da



*Vüqar Bayramov:*

### "Kredit borclarının silinməsinə ehtiyac var"

yazısı səh.10-da



*Aydın Mirzəzadə:*

### "...Azərbaycan standartları yarada bildik"

yazısı səh.3-də



### "O, cəhənnəm odunda yanacaq" - siyasətçilər Primakov haqda danışdılar

yazısı səh.8-də

**30 iyun 2015**



# Ramil Usubov Qubada vətəndaşları qəbul edəcək

**Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2015-ci il iyul ayının 11-də, saat 10:00-da Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının sakinlərini Quba Rayon Polis şöbəsində qəbul edəcək. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, qəbul başa çatdıqdan sonra daxili işlər naziri tərəfindən Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon polis şöbələrində vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla bağlı Quba Rayon Polis Şöbəsində sıra baxışı keçiriləcək. Sıra baxışında yalnız qeyd olunan rayonlarda yaşayış yeri üzrə qeydiyyatda olan və aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:**

- müddətli həqiqi həqiqi hərbi xidmət keçmiş, ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, boyu 175 santimetrdən aşağı olmayan, özü və yaxın qohumları məhkum olunmamış, atletik cüssəli, 20 yaşından 30 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Müsabiqəyə yuxarıda qeyd olunan rayon polis şöbələrində 20 vəzifə elan edilir. Həmin vəzifələrdə əmək funksiyalarının yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətə aparılacağı baxımından, namizədlərin sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Xarici dil bilən və emosional dayanıqlı vətəndaşlara üstünlük veriləcək.

# Tələbə Şəhidlər Xiyabanında intihar etdi



**Yevlax rayon sakini Ağalarlı Ağalar Əflatun oğlu Şəhidlər Xiyabanında intihar edib. Azvision.az tələbənin intiharı ilə bağlı yeni təfərrüatlar əldə edib. Yevlağın Ələş kəndinin icra nümayəndəsi Knyaz Məmmədov açıqlamasında bildirib ki, intihar edən gənc Texniki Universitetin ikinci kurs tələbəsi olub:**

"O, energetika fakültəsinin 2-ci kursunda təhsil alırdı. 19 yaşında olan Ağalar atasını 7 il bundan öncə itirib. Anası isə müəllimə işləyir. Ağaların özündən böyük olan qardaşı Fuad isə İqtisad Universitetinin 3-cü kurs tələbəsidir. Bu intihardan sonra ailənin vəziyyəti çox ağırdır. Anası fəryad edir, oğlunun ölümünə dözə bilmir. Mərhum artıq dəfn olunub".

İcra nümayəndəsi intiharın hansı səbəbdən baş verməsi ehtimallarını da açıqlayıb. O bildirib ki, A. Ağaların maddi çətinliyi olmayıb:

"Ağaların intiharı ilə bağlı yalnız bir ehtimal var. Bu da onun imtahanlarda kəsirinin olmasıdır. Hamı onun bu kəsirlərə görə intihar etdiyi fikrindədir. Ağalar çox qapalı bir uşaq idi. Çox danışan, deyib-gülən uşaq deyildi. Ailəsində heç bir problemi olmayıb. Dərdini, sevincini heç kəslə bölüşməzdi. Hadisə dünən olub. Otaq yoldaşları onun sevgiyə görə intihar etmədiyini deyirlər. Ehtimal ki, Ağalar kəsirlərinə görə canına qıyıb".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Prezident Mehriban Əliyevaya «Heydər Əliyev» ordeni verdi

## İlham Əliyev üç nazirə də mükafat verdi



**Prezident İlham Əliyev ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri, ölkənin birinci xanımı Mehriban Əliyevanı Azərbaycanın ən yüksək ordeni - «Heydər Əliyev» ordeni ilə təltif edib.**

Azərbaycan prezidenti I Avropa Oyunları qaliblərinin və Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında sərəncam da imzalayıb.

Təltif olunanlar arasında fövqəladə hallar naziri Kəmaləddin Heydərov, vergilər naziri Fazil Məmmədov, gənclər və idman naziri Azad Rəhimov da var. K. Heydərov Azərbaycan prezidentinin sərəncamı ilə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, A. Rəhimovla F.Məmmədov isə "Şöhrət" ordeni ilə təltif olunub.



# Köçkünlər ev tələbi ilə etiraz aksiyası keçirdi

**Məcburi köçkünlər bu gün Mingəçevirdə etiraz aksiyası keçiriblər.Bu barədə virtualaz.org saytına Mingəçevir Valideynlər Assosiasiyası İdarə Heyətinin üzvü Yeganə Nəbiyeva məlumat verib.**

Y.Nəbiyevanın sözlərinə görə, Mingəçevirdə Kür çayının üstündən keçən körpüdə nəqliyyatın hərəkəti bir neçə saatlığa dayandırılıb. Köçkünlər onlara ev verilməsini tələb ediblər: "I Avropa Oyunlarının su-avarçəkmə ilə bağlı hissəsinin Mingəçevirdə keçirilməsi üçün Olimpiya kəndi salınmışdı. Oyunlardan sonra həmin evlərin məcburi köçkünlərə paylanması gözlənilirdi. Lakin say etibarilə bunun bütün köçkünlərə verilməsi mümkün deyil. Həmin evlərdə mənzil almaq istəyən köçkünlər isə körpüdə nəqliyyatın hərəkətini dayandırmağa cəhd göstərdilər. Piket polislərin müdaxiləsi ilə dağıdılıb".

Mingəçevir Şəhər Polis Şöbəsindən virtualaz.org saytına xəbəri təsdiqlədilər: "Məcburi köçkün olan qadınlar toplanaraq ev almaq istədiklərini söylədilər. Biz isə onların istəkləri ilə bağlı Mingəçevir Şəhər İcra Hakimiyyətinə məlumat verdik. Bildirdik ki, polis ev vermir, evi "Qaçqınkom" verir, həmin ev də köçkünlər üçün tikilib, vaxtı çatanda komitə o mənzilləri paylayacaq. Qadınlar da bizi başa düşdülər və dağıldılar".

# Müsavat Divanının toplantısı keçirilib

**Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Partiyanın mətbuat xidmətindən musavat.com-a daxil olan məlumata görə, Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. İclasda Müsavat Partiyasının başqanı Arif Hacılının Brüsseldə Avropa İttifaqının dəvəti ilə "Liberal demokratik perspektivdə Şərq Tərəfdaşlığının gələcəyi" mövzusunda keçirilən müzakirələrin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransı haqqında məlumat verilib.**

Milli azadlıq hərəkatının liderti Əbülfəz Elçibəyin doğum günü ilə bağlı Fəxri Xiyabanda keçirilən anım tədbiri müzakirə olunub.

4 iyul 2015-ci ildə saat 11:00-da partiyanın mərkəzi qərargahında keçiriləcək Məclisin növbəti yığıncağı ilə bağlı məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Məclisin komissiyalarının yaradılmasının zəruriliyi qeyd olunub, Məclisin gündəliyinin layihəsi müəyyən edilib.

Divan üzvü Alya Yaqublu vicdan məhbusu Tofiq Yaqublu ilə görüşü barədə məlumat verib.

Müsavat Partiyası hakimiyyətdən Bakıda keçirilən Avropa Oyunlarına dövlət büdcəsindən çəkilən xərclərlə bağlı açıqlama verməsini tələb edib.

Yığıncaqda vicdan məhbuslarının beynəlxalq müdafiəsinin təşkilinin gücləndirilməsinin zəruriliyi qeyd edilib.

Sonda cari məsələlərə baxılıb.

# Azərbaycanda Aliment Fondu yaradılır

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda Aliment Fondunun yaradılması ilə bağlı Nazirlər Kabinetinə rəsmi şəkildə təklif göndərib. Komitənin İnformasiya və Analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov APA-ya bildirib ki, bu işdə başqa ölkələrin təcrübəsi öyrənilir.**

Onun sözlərinə görə, Aliment Fondu yeni bir struktur olacaq: "Bizim komitə Aliment Fondunun yaradılmasına dair təşəbbüskarlardan biridir. Başqa dövlətlərdə - Macarıstanda, Almaniyada, Fransada belə fond var. Belə bir təcrübəni onlardan öyrənib Aliment Fondunu yaratmalıyıq. Aliment Fondu ya müstəqil bir təşkilat olmalı, ya da Ədliyyə Nazirliyinin tərkibində fəaliyyət göstərməlidir".

Şöbə müdiri Azərbaycanda Aliment Fondunun yaradılması mexanizminin bir qədər fərqli olacağını vurğulayıb: "Mexanizmin özündə yeni bir təşkilatın yaradılması əks olunub. Yeni təşkilatın yaradılması üçün isə yeni büdcə olmalıdır. Büdcədə də tutaq ki, 2000 vətəndaşa alimentin ödənilməsi ilə bağlı vəsait müəyyənləşdirilməlidir. Yəni, aliment ilkin olaraq dövlət büdcəsindən ödəniləcək. Daha sonra isə icraedici şəxslər alimentin məbləğini faizi ilə birgə tutaraq dövlət büdcəsinə qaytarmalıdırlar. Bu mexanizmin yaradılması çox vacibdir".

E. Səfərov əlavə edib ki, Aliment Fondunun yaradılması ilə Azərbaycanda sosial risk qrupunda olan şəxslərə yardım etmək imkanı yaranacaq: "Alimenti ödəməkdən boyun qaçıran valideynlər məcburi şəkildə psixoloqlara göndəriləcək ki, niyə aliment ödənilmir, nəyə görə valideyn uşağına qarşı laqeyddir. Valideyn psixoloqa getməyəndə atalıqdan məhrum edilir. Qanunvericilik təkmilləşdiriləndən sonra bunu tətbiq etmək olacaq. İnkişaf etmiş ölkələr bu praktikadan istifadə edir".

E. Səfərov qeyd edib ki, bu gün alimentlə bağlı qanunvericilikdə təkmilləşdirmə işləri davam etdirilməlidir: "Təsəvvür edin, insanın adına əmlak yoxdur, rəsmi əmək haqqı heç bir yerdə göstərilmir. Ancaq yaşayış səviyyəsi yaxşıdır. Bununla belə, alimenti ödəmir. Elektron baza yaradılmalıdır. Cinayət məsuliyyətinə cəlb etmə prosesi daha da gücləndirilməlidir. Aliment beş ay müddətində ödənmirsə, həmin şəxs avtomatik olaraq cinayət məsuliyyətinə cəlb olunmalıdır".



# "Biz bacardıq və Azərbaycanı bütün dünyaya təqdim edə bildik"

**"Azərbaycana gələn qonaqlar artıq ölkəni tərk edirlər. İnsanlar razı qayıdır. Bu, bizim əməyimizin nəticəsidir. Biz bunu bacardıq və Azərbaycanı bütün dünyaya təqdim edə bildik".**

APA-nın məlumatına görə, bu sözləri Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov deyib.

Nazir Azərbaycan yığma komandasının yüksək nailiyyətlər qazandığını vurğulayıb: "Mən qətiyyən gözləmirdim ki, bizim komandamız ikinci yerə çıxacaq. Ölkə prezidenti İlham Əliyev bütün idmançıları və məşqçiləri bu gün təbrik etdi və onları mükafatlandırdı. Ən böyük mükafat isə Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim olundu".

A. Rəhimovun sözlərinə görə, təşkilatçıları ən çox sevindirən hallardan biri idman zallarının tamaşaçılarla dolması olub.

# Bu gün Azərbaycanda 42 dərəcə isti olacaq

**İyunun 30-da Bakı və Abşeron yarımadasında hava şəraitinin əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA TV-yə verilən məlumata görə, şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.

Havanın temperaturu gecə 22-25, gündüz 32-37 dərəcə isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu 25-26 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən, yağmursuz keçəcəyi gözlənilir. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 35-40, bəzi yerlərdə 42, dağlarda gecə 15-20, gündüz 27-38 dərəcə isti olacaq.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Avropa Oyunları bitdi: nə qazandıq?

**Bakı 2015 Birinci Avropa Oyunları iyunun 28-də başa çatdı. 17 gün davam edən bu böyük idman tədbirinin açılış mərasimi kimi bağlanış mərasimi də bütün dünyanın diqqət mərkəzində idi. Ümumiyyətlə, bu 17 gündə Azərbaycan dünyanın diqqət mərkəzində oldu. Aparıcı KİV orqanları möhtəşəm mərasimi işıqlandırmaqla Azərbaycanda keçirilən və Avropada ilk olan bu tədbiri dünyaya çatdırdılar.**

## Aydın Mirzəzadə: "Biz bütövlükdə Azərbaycan standartları yarada bildik, xalqımızda özünə, dövlətinə inam möhkəmləndi"

Bəs artıq tarixə qovuşmuş bu böyük idman tədbiri-Avropa Oyunları Azərbaycana nə verdi, nələri ortaya çıxardı?

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə** hesab edir ki, Azərbaycan özünün müstəqil dövlətçiliyində nail olduqlarını Avropa Oyunlarında nümayiş etdirə bildi: "Biz Azərbaycanın qədimlikdən gələn resurslarını da Avropa Oyunları vasitəsilə nümayiş etdirə bildik. Əslində Azərbaycanın cəmi 30 ay ərzində bu cür möhtəşəm idman festivalını yüksək səviyyədə hazırlıq görüb keçirəcəyinə çoxları inanmazdı. Amma Azərbaycan bunu edə bildi. Biz nəinki çox möhtəşəm açılış və bağlanış həyata keçirdik, nəinki oyunların yüksək dərəcədə keçirilməsinə şərait yaratdıq, biz bütövlükdə mütləq mənada Azərbaycan standartları yarada bildik. Xalqımızda özünə, dövlətinə inam möhkəmləndi. Beynəlxalq olimpiya nümayəndələri bundan sonrakı oyunların Azərbaycandan yaxşı keçirilməsinin çox çətin olacağını bəyan edirlər".

**A.Mirzəzadə onu da qeyd etdi ki, Avropa Oyunları Azərbaycanın infrastrukturunun yaxşılaşmasına güclü təkan verdi:** "Onlar onsuz da ediləcəkdi. Amma oyunlar prioritet istiqamətləri seçdi, Bakının bir sıra məsələlərinin həllini sürətləndirdi. Bakı ilə yanaşı regionların da inkişafına bir stimul verdi. Oyunlar təkcə paytaxtda deyil, eyni zamanda Mingəçevirdə də keçirilirdi. Mingəçevir dünya üçün yeni bir məkan oldu".

**Deputatın sözlərinə görə, Avropa Oyunları Azərbaycan xalqının milli vətənpərvərlik əzmini daha möhkəmlətdi:** "İnsanlarda dövlətinin gücünə, qüdrətinə inam daha da artdı. İnsanlar oyunlarda iştirakı axtarmağa başladılar və vətəni ilə fəxarət hissi hər kəsdə yarandı. Avropa Oyunları Azərbaycan xalqının malik olduğu yüksək mədəniyyəti ortaya qoya bildi. Nə idmançıların, nə turistlərin yerli əhali ilə bir dənə də olsun insidenti olmadı. İnsanlar yerli əhalidən ancaq xoş münasibət gördülər. Həmçinin Azərbaycan xalqı özünün qanunlara yüksək hörmətini göstərdi. Bakının bir sıra yollarında olimpiya yolu adlanan və xüsusi buraxılışı olan avtomobillər üçün bir cərgə ayrıldı. Baxmayaraq ki, Bakıda yüz minlərlə maşın var, bütün müddət ərzində verilən statistikaya görə cəmisi həmin cərgə ilə bağlı qaydanı 1400 nəfər pozub. Hesab edirəm ki, onlar da ilk günlər o yolun əhəmiyyətindən tam məlumatı olmayan sürücülər tərəfindən edilib. Azərbaycanlıların hər biri Avropa Oyunlarına öz töhfəsini verdi. Bakı bu Avropa Oyunları zamanı kifayət qədər təmiz idi. İnsanlar küçələrin, parkların təmizliyini gözləyirdilər. Bu oyunlar eyni zamanda Azərbaycan xalqının şəxsi mədəniyyətini göstərdi".



Aydın Mirzəzadə

**"Beynəlxalq olimpiya nümayəndələri bundan sonrakı oyunların Azərbaycandan yaxşı keçirilməsinin çox çətin olacağını bəyan edirlər"**

**A.Mirzəzadə Avropa Oyunlarının açılış və bağlanış mərasimində siyasi partiyaların iştirakı, onların dəvət olunmasına da diqqəti çəkdi:** "Ümumən götürdükdə bir protokol qaydası var idi. Mən 1997-2000-ci illərdə Prezident Aparatının İctimai-siyasi şöbəsində işləyirdim. Həmin dövrdə bütün mühüm tədbirlərə qeydiyyatdan keçmiş bütün siyasi partiyaların nümayəndələri dəvət edilirdi və onlar gəlirdilər. İndi Avropa Oyunları xüsusi diqqətdə olduğu üçün siyasi partiyaların mərasimlərə gəlişi diqqəti daha çox cəlb etdi. Artıq zamanı çatıb ki, biz ümummilli maraqlarla partiya maraqları anlayışını bir-birindən ayıraq. Hər bir kəs öz siyasi maraqlarını, ambisiyalarını dövlət üçün əhəmiyyətli dövrlərdə kənara qoymağı bacarmalıdır. Avropa Oyunları bu məsələdə də müsbət əhəmiyyət kəsb etdi".

**Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadənin sözlərinə görə, 17 gün Azərbaycanda gənclik və idman bayramı keçirilib:** "Bu tədbir çox yüksək səviyyədə təşkil olundu. Azərbaycan bu oyunları keçirməklə dünyaya öz mədəniyyətini, dövlətini, imkanlarını nümayiş etdirmək imkanı qazandı. Avropalılar oyunlara gələrək xalqımızın qonaqpərvərliyini, mədəni səviyyəsinin yüksək səviyyədə olduğunu gördü. Ona görə də hesab edirəm ki, bu, tarixi bir hadisə idi. Həmçinin oyunlarda idmançılarımızın uğurları ölkəmizdə idmanın inkişafının təzahürüdür".

❑ **Etibar SEYİDAĞA**

# Emin Hüseynov müəmması davam edir; RATİ niyə məhkəməyə verilib?

## Mehman Əliyev: "Ola bilər ki, anlaşmanın şərtləri bu formadadır: öncə məhkəmə borcu sübut edəcək, sonra borc ödənəcək"

**İyulun 1-də Bakı İqtisad Məhkəməsində Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutuna qarşı iddia üzrə hazırlıq iclası keçiriləcək. İddianı Vergilər Nazirliyi qaldırıb. Nazirlik RATİ-ni vergidən yayınmaqda ittiham edir. İttihamın konkret detalları məlum deyil.**

**RATİ-nin hüquqşünası Günay İsmayılova** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu barədə mediaya hər hansı açıqlama verə bilməz. O, suallarımızı cavablamaq üçün E.Hüseynovla əlaqə yaratmağı məsləhət gördü. Hazırda İsveçrədə olan RATİ sədri isə heç bir kontakta çıxmır. Qardaşı, blogger Mehman Hüseynov da müxbirimizə bu gəlişmə ilə bağlı hər hansı məlumata malik olmadığını dedi.

Maraqlıdır ki, E.Hüseynovun ölkədən çıxdığı xəbəri yayılan gün onun 160 min dollar həcmindəki borcunu dövlətə ödədiyi barədə məlumatlar yayılmışdı. Amma ilk gündən bu olayla bağlı hər hansı rəsmi struktur açıqlama yaymayıb, nə də E.Hüseynov, onun vəkilləri səviyyəsində olaya aydınlıq gətirilib. O səbəbdən də iki gün sonra baş tutacaq məhkəmə prosesinin hansı borclar üzərində qurulduğu da məlum deyil.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev bildirdi ki, o da bütün həmkarları kimi RATİ ilə bağlı məlumatları mətbuatdan oxuyub və detalları ilə tanış deyil. Müsahibimizin sözlərinə görə, rəsmi xəbər verilmədiyi üçün bir çox suallar da cavabsız qalıb:** "Bilinmir ki, Emin Hüseynovu nəyə görə buraxıblar, irəliyə hansı şərtlər sürülüb. O, hansı şərtləri yerinə yetirib, hansını yetirəcək və ya nəyi ödəyib, nəyi yox. Biz ancaq ehtimallar üzərində danışırıq".

**Müsahibimiz gedəndən bəri E.Hüseynovun onunla hər hansı əlaqə yaratmadığını, yerli mətbuata da müsahibə vermədiyini dedi. Onun sözlərinə görə, məhkəmənin baş tutacağı xəbəri bununla bağlı bir neçə fərziyyəni aktuallaşdırır:** "Ola bilər ki, vergi borcu ödənilib, amma indi rəsmiləşdirmək istəyirlər. Ya da belə razılıq olub ki, bu vergi borcu ödəniləcək, əsas odur, məhkəmə qərarı olsun. Daha bir ehtimal da var ki, öhdəlik çıxıb. Həmin öhdəliyə görə, Emin Hüseynov məhkəmənin onun vergi borcu olduğunu sübut edəcəyi təqdirdə bu vəsaiti ödəyəcəyini şərt qoyub. Yəni razılaşıb ki, məhkəmə sübut etsin ki, vergi borcum var, mən də ödəyim. Vasitəçilər də deyiblər ki, biz zamin dayanırıq. Bununla da Emin Hüseynov ölkəni tərk edə bilib. Amma dediyim kimi, bütün bunlar ehtimallardır. Emin özü danışana, ya da rəsmi açıqlama yayılana qədər bu istiqamətdə hər cür versiyalar yayıla bilər".



Mehman Əliyev

Xatırladaq ki, RATİ 2014-cü ilin avqustunda hakimiyyət tərəfindən qapadılıb.

RATİ rəhbəri Emin Hüseynov 2015-ci il iyunun 12-dək İsveçrə səfirliyində gizlənib və sonradan bu ölkədə sığınacaq alaraq oraya gedib. 10 aydan çoxdur sığındığı İsveçrə səfirliyindən RATİ rəhbərini həmin ölkənin Bakıda səfərdə olan yüksək rütbəli diplomatı Didye Burkhalter çıxarıb. Didye Burkhalter Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Bakıya gəlib.

İsveçrə Federal Xarici İşlər Departamentinin ATS agentliyinə verdiyi rəsmi məlumata əsasən, E.Hüseynovun Bakıdan çıxarılması Azərbaycan hakimiyyəti ilə uzun müddətdir aparılan danışıqların nəticəsidir.

❑ **Sevinc TELMANQIZI**

# 13 saylı həbsxanada məhbuslar su üzünə həsrət qalıblar

## Bu gün başqan müavininin məhkəməsidir; isti hava şəraiti İntiqam Əliyev və Nemət Pənahlının səhhətini daha da ağırlaşdırıb

**Müsavat başqanının həbsdəki müavinlərindən Tofiq Yaqublunun saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsində məhbuslar acınacaqlı durumla üz-üzə qalıblar. Belə ki, iyunun 27-dən etibarən məhbuslara içməli su verilmir.**



Bu barədə müsavat.com-a Tofiq Yaqublunun qızı Nigar Yaqublu məlumat verib: "Atamla telefonla danışdım. Çox çətin durum yaranıb. Məhbuslara içməli suyun verilməsi dayandırılıb. Əsas problem budur. İsti yay günləri olduğundan daha çox məhbuslar suya ehtiyac duyurlar".

Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun isə məhkəməsi başlamaq üzrədir. Dövlətə xəyanət maddəsi işdən ayrıldığına görə yaxın vaxtlarda digər maddələr üzrə məhkəmə prosesinin başlanacağı gözlənilir. Hüquq müdafiəçisinin vəkili **Elçin Qəmbərov** yaxın günlərdə onunla görüşəcəyini, işlə tanış edəcəyini söylədi: "Dövlətə xəyanət maddəsinin ayrılmasına baxmayaraq, digər maddələr üzrə məhkəmə başlaya bilər. İstintaq artıq yekunlaşıb. Dövlətə xəyanət maddəsi üzrə istintaqla bağlı bizdə heç bir məlumat yoxdur. İstintaq aparıla da bilər, aparılmaya da. İndi başlayacaq maddələr üzrə məhkəmə prosesləri yekunlaşandan sonra qalan maddə üzrə də məhkəmə ola bilər. Leyla xanımın səhhəti pisdir. Keçən həftənin beşinci günü görüşdüm. Hər şey əvvəlki qaydadadır. Digər məhbuslarınkı necədirsə, Leyla xanımın da rejimi elədir".

**Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin** səhhətindəki problemlər davam edir. Xüsusilə saxlandığı kameranın isti olması onun səhhətinə təsirsiz ötüşmür. Ailəsi iyunun 28-də onunla görüşüb. Hüquq müdafiəçisinin qızı Nərmin Kamilsoy atasının səhhətinin pisləşdiyini bildirdi: "İyunun 28-də görüşdük. Yaxşı deyil. Kamerası çox isti olur. Problemini heç vaxt demir. Çox arıqlayıb. Əvvəlki görüşümüzdə belə deyildi. Ağrıları davam edir. Bizimlə görüşündə ayaq üstə güclə dayanırdı. Yaxın günlərdə apelyasiya şikayətinə baxılacaq".

**Bu gün isə Bakı Apelyasiya Məhkəməsində Müsavat başqanının həbsdəki müavini Fərəc Kərimlinin** hökmdən verilən şikayətinə baxılacaq. Başqan müavininin atası son durumla bağlı bunları dedi: "İyunun 29-da təcridxanada Fərəclə görüşdük. Şüşə arxasında görüş verdilər. Vəziyyəti normaldır. İyunun 30-da Apelyasiya Məhkəməsi olacaq".

Hazırda Qobustan həbsxanasında saxlanılan **Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının** həyat yoldaşı Həcər Pənahlı havaların isti keçməsinin dustağın səhhətinə ciddi təsir etdiyini bildirdi: "Elə bir yenilik yoxdur. Səhhəti əvvəlki kimidir. İsti hava şəraiti Nemətə ağır təsir edir. Otağının balaca olması havasızlığa səbəb olur. Heç bir tədbir də görülmür. Türmə şəraiti Nemətin həyatını məhv edir..."

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015

# "Seçkilər ölkə gündəmində əsas yer tutacaq"

**Sərdar Cəlaloğlu:** "Qarşıdan gələn seçkilər Azərbaycan üçün ciddi bir test, sınaq olacaq"

**Azərbaycanın gündəminə oturmuş və parlament seçkiləri kimi mühüm hadisəni belə kölgədə qoymuş Bakı 2015 Avropa Oyunları artıq başa çatdı. Ekspertlərin fikrincə, bundan sonra bütün hədəflər 1 noyabrda keçiriləcək parlament seçkilərinə yönələcək, ölkə gündəminə seçkilər mövzusu daxil olacaq. Eyni zamanda bildirilir ki, bunun üçün iqtidarın atacağı addımlar da əsas rol oynayacaq.**



Bu mövzuda "Yeni Müsavat"a açıqlamasında **ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, təbii olaraq son bir ayda bütün diqqət Avropa Oyunlarına yönəlmişdi. Çünki Azərbaycan kimi kiçik bir dövlətin belə bir nəhəng tədbiri keçirməsi çox ciddi məsuliyyətli bir iş idi: "Bir-iki turistin təsadüfi qəzaya düşməsini nəzərə almasaq çox şükür ki, sarsıntılar, kataklizmlər olmadan Avropa Oyunları keçdi. Bunun özü dövlətimizin gücünü nümayiş etdirir ki, belə nəhəng tədbirləri təhlükəsiz keçirdə bildi. Onu da deyim ki, ölkəni tamamilə belə tədbirlərə indeks eləmək tamamilə yanlışdır. Çünki ölkə özünün normal həyatını yaşamalıdır. Bu cür tədbirlər də sadəcə paralel bir proses kimi getməlidir. Təcrübəsizlik və ilk addım olduğu üçün Azərbaycan bütövlükdə buna indeksləndi.

Yəqin ki, artıq ölkədə yaxınlaşmaqda olan parlament seçkiləri gündəmə tədricən oturacaq. İndi siyasi gündəmin əsas məsələsi 1 noyabrda keçiriləcək parlament seçkiləri olmalıdır. Biz Avropa Oyunları ərəfəsində Qərbin, Avropanın rəsmi və qeyri-rəsmi institutlarının Azərbaycanla bağlı çox kəskin, net mövqeyinin ortalığa çıxmasının şahidi olduq. Azərbaycan bundan sonra da Qərbə inteqrasiya etmək istəyirsə, mütləq deyilən iradları aradan qaldırmalıdır. Bir ölkə Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi edə bilirsə, Avropa dəyərlərini də öz daxilində bərqərar etməlidir və istəsə edə bilər. Birinci növbədə Azərbaycanda siyasi məhbus problemi həll olunmalıdır, demokratik seçkilər keçirilməlidir. Nəhəng pullar qoyub Avropa Oyunları keçirib sonra da Avropa ilə konfrantasiyaya getmək bu oyunlardan əldə edilən dividentlərin heçə getməsi olardı".

**ADP sədrinin sözlərinə görə, Avropa institutlarının, Avropanın iri dövlətlərinin iradlarını, bəhanələrini əllərindən almağın ən yaxşı yolu siyasi məhbusları azad etmək, parlament seçkilərini ədalətli keçirməyə nail olmaqdır:** "Azərbaycan iqtidarı mütləq bunu etməlidir. Bunu etsə mövqelərimiz güclənəcək. Qarşıdan gələn seçkilər Azərbaycan üçün ciddi bir test, sınaq olacaq. Azərbaycan bu testdən necə çıxacaq, bu, hakimiyyətdən çox asılıdır. Azərbaycan həmişəki kursu davam etdirəcəksə, bundan sonrakı bütün proseslər, keçiriləcək növbəti yarışlar, beynəlxalq tədbirlər Azərbaycanın əleyhinə işləyəcək".

❑ **E.SEYİDAĞA**



# Azay Quliyev Robert Sekuta ilə görüşdü

**Şura sədri səfirə Dövlət Departamentinin "insan haqlarının durumu haqqında 2014-cü il hesabatında" Azərbaycanla bağlı qeyd olunan bir çox məqamların həqiqəti əks etdirmədiyini qeyd edib**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) rəhbəri Robert Lopez və səfirliyin siyasi işlər üzrə müşaviri Dəniel Slaşer ilə görüş keçirilib. Bu barədə müsavat.com-a şuradan məlumat verildi.

Görüşdə bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Şura sədri, millət vəkili Azay Quliyev rəhbərlik etdiyi təşkilatın vətəndaş cəmiyyəti institutlarının güclənməsi istiqamətində həyata keçirdiyi tədbirlər və QHT-lərə verilən maliyyə yardımı haqqında ətraflı məlumat verib.

ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta Azərbaycanın I Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etdiyini, xüsusilə könüllülərin fəallığının təqdirəlayiq olduğunu qeyd edib. Səfir ikitərəfli münasibətlərin perspektivləri haqqında danışıb və ABŞ-ın Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə müxtəlif sahələr üzrə çoxsaylı layihələr icra etdiyini deyib. Robert Sekuta bundan sonra da ABŞ-Azərbaycan münasibətlərinin müsbət məcrada inkişafı üçün bütün potensialını sərf edəcəyini bildirib. Səfir Azərbaycanın QHT qanunvericiliyinə edilən son əlavə və dəyişikliklərlə bağlı məlumat almaq istədiyini qeyd edib.

Azay Quliyev qanunvericiliyə edilmiş dəyişikliklərin mahiyyəti haqqında danışaraq parlamentin bu addımının ictimai sektorda şəffaflığın və hesabatlılığın artmasına, mövcud resursların səmərəli istifadənin təmin edilməsinə və qanunsuz fəaliyyətin vaxtında aşkarlanmasına xidmət etdiyini bildirib.

Şura sədri son zamanlar ABŞ-da bəzi qurumların Azərbaycan əleyhinə fəaliyyətindən narazı qaldığını da qonağın diqqətinə çatdırıb. Azay Quliyev təəssüflə bildirib ki, ABŞ-ın dövlət büdcəsindən maliyyələşən bir sıra QHT və media orqanları açıq şəkildə Azərbaycan haqqında mənfi rəy yaratmaq və qərəzli məlumatlar yaymaqla məşğuldurlar. Azay Quliyev ABŞ Dövlət Departamentinin "İnsan haqlarının durumu haqqında 2014-cü il hesabatında" Azərbaycanla bağlı qeyd olunan bir çox məqamlara da toxunaraq konkret faktlarla onların həqiqəti və reallığı əks etdirmədiyini qeyd edib.

Sonda hər iki tərəf qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələrin davam etdirilməsinin vacibliyini vurğulayıb.

❑ **M.MAHRIZLI**

# Vəkili "A.M.A.Y." Abdullanın şantaj olunduğunu iddia edir

## Həbsdəki iş adamından külli miqdarda pul istənilib?

**Xəbər verdiyimiz kimi, Bakı Ağır Cinayətlər Məhkəməsində "A.M.A.Y." rəhbəri Abdulla Abdullayev, daha beş nəfər - Elşən Nəzərov, Heydər Rzayev, Mehman Məmmədxanlı, Vidadi Qurbanov və Hadejda İlyasovanın işi üzrə keçirilən məhkəmə prosesləri hələ iyunun əvvəlindən qeyri-müəyyən müddətə qədər təxirə salınıb. Ötən müddət ərzində A.Abdullayevin yaranmış duruma reaksiya verməməsi onunla müəyyən danışıqların aparılması qənaətini yaratmışdı. Vəkili Osman Kazımovun mətbuata son açıqlaması isə yaranmış qənaətin doğru olmadığı anlamına gəlir. Vəkil "Turan"a deyib ki, Abdulla Abdullayev üzərində məhkəmə prosesinin bu ayın sonuna kimi bərpa ediləcəyinə inanmır.**



Abdulla Abdullayev

"Bunlar sifarişlə keçirilən məhkəmələrdir və konkret söz deyilməyincə, hansısa bir hərəkət olacağı inandırıcı deyil", - deyə vəkil faktiki məhkəmələri müstəqil olmamaqda ittiham edib.

Daha sonra O.Kazımov A.Abdullayev və daha 5 nəfər üzərində mart ayından iyun ayına kimi davam edən məhkəmə prosesləri və konkret ittihamlar barədə açıqlama verib. "Burada müdafiə tərəfi üçün vacib olan budur ki, ittiham tərəf irəli sürdüyü ittihamları sübuta yetirə bilmir", - deyə vəkil istintaqı əsassız ittiham irəli sürməkdə suçlayıb. O qeyd edib ki, istintaq tərəfin yüzlərlə zərərçəkən kimi tanıdığı şəxs A.Abdullayevi təqsirli və ya zərərvuran şəxs kimi tanımayıblar. Vəkilə görə bu da onu göstərir ki, istintaq təqsirləndirmək istədiyi şəxsin təqsirini sübuta yetirə bilməyib. Digər tərəfdənsə, O.Kazımov ittiham tərəfi istintaqı çox səthi aparmaqda ittiham edib.

**"Maraqlı bir situasiya yaranıb, A.Abdullayevə "Texnikabank"dan kredit olaraq götürülən və artıq qaytarılmış olan maliyyə vəsaitlərinə görə həm dələduzluq, həm külli miqdarda mənimsəmə, həm də "çirkli pulların leqallaşdırılması" ittihamları irəli sürülür. İstintaq tərəfdən "çirkli pulların leqallaşdırılması" ilə bağlı fevral ayından bu yana sübutları tələb edirik, amma ittiham tərəf bizə bir sübut belə təqdim etməyib"**, - deyə vəkil durumu açıqlayıb. O.Kazımov A.Abdullayevin şantaja məruz qalması kimi mövqe açıqlayıb. Onun sözlərinə görə, məhkəmə prosesinin gedişində şantajın haradan qaynaqlanması bütün proses iştirakçılarına da aydın olacaq. Vəkil şantajın mənbəyi kimi daha çox hüquq-mühafizə orqanlarının olacağını ehtimal edir.

Yada salaq ki, bu il mayın 4-də moderator.az saytında həbsdə olan A.Abdullayevin şantaja məruz qalması haqda xəbər yayılmışdı. Mayın 4-də yayılan məlumatda bildirilirdi ki, A.Abdullayevdən azadlığa buraxılması üçün ondan külli miqdarda pul istənilib. Həmin vaxt O.Kazımov informasiyanın həqiqətə uyğun olmadığını bildirmişdi. **"Məncə, Abdulla Abdullayev şantaj edilərək həbsə alınıb. Yüksək vəzifəli şəxsə Abdulla Abdullayev barədə yalan məlumat çatdırılıb. Nədənsə məndə belə bir qənaət formalaşıb"** - deyə vəkil bildirmişdi.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılaraq, Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

İttiham aktına əsasən, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaitin özü tərəfindən müəyyən edilməklə ayrı-ayrı hüquqi şəxslərin müvəkkil edilmiş kredit təşkilatı olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməsinə nail olaraq həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y." MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə sərf edib. **"Eləcə də Abdulla Abdullayev "Texnikabank" ASC-də bank tərəfindən ayrı-ayrı müəssisələrə kredit vəsaitlərinin ayrılmasını rəsmləşdirilməsinə nail olmaqla ümumilikdə 40 milyon 150 min manat pul vəsaitini etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirib. A.Abdullayev 2003-2012-ci illərdə "Xudafərin" MMC-nin Bakı şəhəri, Atatürk prospekti 3078 "a" ünvanında inşa etdirdiyi binadan ümumilikdə 262 mənzil və 3146 kv metr qeyri yaşayış sahəsinin satışından 11.218.675 manat məbləğində pul vəsaiti alsa da, binanın tikinti-quraşdırma işlərinə 7.712.913 manat sərf edib və ümumilikdə 3.505.762 manat mənimsəyərək dələduzluq edib"** - ittiham aktında qeyd edilir.

Abdulla Abdullayev, Novruzov Elşən Firudin oğlu, Rzayev Heydər Nizami oğlu, Məmmədxanlı Mehman Əbülfəz oğlu, Qurbanov Vidadi Qəmbər oğlu və İlyasova Nadejda İvanovna təqsirləndirilən şəxs qismində cəlb edilib. İstintaqa cəlb edilənlərdən yalnız A.Abdullayev həbsdədir. Abdulla Abdullayev Cinayət Məcəlləsinin dələduzluq, mənimsəmə və ya israf etmə, yalançı sahibkarlıq və vəzifə səlahiyyətlərindən sui-istifadə əməlləri ilə təqsirləndirilir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015

## Oyunlar bitdi - hakimiyyətdə dəyişiklik zamanı çatdı

# Prezidentin "yol xəritəsi": siyasi islahatlara start verilir

**Azərbaycan Avropa Oyunlarını yüksək səviyyədə keçirərək bu tarixi hadisəni geridə qoydu. 2015-ci ilin ilk 6 ayı Avropa Oyunlarına hazırlıqlarla yadda qaldı və iqtidar həm "köhnə qitədən", həm Amerikadan gələn ardıcıl təzyiqlərə baxmayaraq, yarışları böyük bacarıqla tamamladı. Qərb institutlarının Avropa Oyunlarından sonra da rəsmi Bakıya təzyiqləri artıracağı gözləniləndi.**

Qərb Azərbaycanı yanında görmək istəyir, amma onun rəsmi Bakını yanına çəkmək istəkləri də Rusiyanın siyasəti qədər qaba və kobuddur, üstəlik, Qarabağ məsələsində şantaj siyasəti yürüdür; hakimiyyətin yalnız bir optimal yolu qalır: daxildən real olaraq güclənmək, islahatlar və müxalifətin parlament təmsilçiliyinə mane olmamaq; İlham Əliyev komandada dəyişiklik üçün xalqdan umduğu dəstəyi də, mandatı da almış sayılmalıdır...




Çünki Azərbaycan hakimiyyəti, daha konkret desək, prezident İlham Əliyev Avropa və dünya mətbuatının nə yazmasından, Qərb liderlərinin nə düşünməsindən asılı olmayaraq Avropa Oyunlarından xeyli güclənmiş çıxdı. Daxili auditoriya hər gün prezidentini öz yanında gördü, idmançılara dəstək verdiyinə, onların uğuruna necə sevindiyini, hətta Qarabağ qazisi ilə qalib kürsüsündə necə kövrəldiyinə belə şahidlik etdi. Bu, 12 illik idarəçilik sistemində bir yenilik, bir ilk idi.

İdman siyasi yarışma deyil, orada müxalifət və iqtidar bölgüsü yoxdur. Hakimiyyətin siyasi rəqiblərinə münasibətinin sərt üzü də burada görünmür. Amma bu cür idman tədbirləri həm də hakimiyyətlərin reytinqinə işləyir. Bu baxımdan dövlət başçısı daxildən umduğu və görmək istədiyi dəstəyi, zənnimizcə, aldı və məmnun qaldı. Qərbin basqıları fonunda daxildən qaynaqlanan psixoloji üstünlük hakim komanda rəhbəri üçün çox vacib bir faktordur. Yeri gəlmişkən, prezidentin komandası da ara-sıra tribunalarda görünsələr də, onlar İlham Əliyevin sadəcə, kölgəsində qaldılar.

***

İndi qarşıdan ölkə üçün ən önəmli siyasi tədbir - parlament seçkiləri gəlir. Son altı ayda baş verənlər mühüm bir reallığı ortaya qoydu: yeni iqtisadi, sosial və siyasi gerçəklik dəyişiklik tələb edir. Ermənistanda sosial tələblərlə başlamış aksiyaların siyasi nəticələrindən asılı olmayaraq, Azərbaycan iqtidarı da idarəetmədə, hakim komandada dəyişikliklər barədə düşünülməlidir. Avropa Oyunlarının nəticələrinin verdiyi psixoloji üstünlük eyforiya yox, dəyişiklik üçün zəmin olmalıdır. Zənnimizcə, prezident bu dəyişiklik üçün xalqdan umduğu dəstəyi də, mandatı da almış sayılmalıdır...

***

Avropa Oyunlarından sonra hamı mümkün böhrandan danışır. Hətta ekspertlər parlament seçkiləri ərəfəsi *(oktyabr-noyabr)* manatın ikinci devalvasiyasını proqnozlaşdırırlar. Neftin qiymətinin hələ uzun müddət dövlət büdcəsinə arzuedilən gəlir gətirməyəcəyi də gözləniləndir.

Faktiki ölkə iqtisadiyyatı neftin qiymətinin tənəzzülü ilə yeni mərhələyə adlayıb. Hələ bir müddət əvvəl də qeyd etmişdik ki, bu mərhələdə hakimiyyət artıq əvvəlki rahatlıqla dövlət büdcəsini yönləndirə və xərcləyə bilməyəcək. İndi daha rasional iqtisadi komanda formalaşdırılmalı, qeyri-neft sektorunun inkişafını sürətləndirə biləcək islahatlar aparılmalı və bu islahatlara cavabdehlik yeni kadrlara həvalə edilməlidir.

Belə görünür ki, Qərblə Azərbaycan hakimiyyəti arasında yaranmış gərginliyin heç də bir neçə siyasi məhbusun azadlığı ilə aradan qalxmayacağını Bakıda daha yaxşı anlayırlar. Qərb-Rusiya münasibətlərinin son bir ildə pisləşməsi Azərbaycanın balanslı siyasi kursuna təsirsiz ötüşməyib. Qərb Azərbaycanı yanında görmək istəyir, amma onun rəsmi Bakını yanına çəkmək istəkləri də Rusiyanın siyasəti qədər qaba və kobuddur. Üstəlik, Kremlin Qarabağ məsələsində şantaj siyasəti indi Qərbdə daha bəsit istifadə edilməkdədir ki, bu, Avropa Şurasının son qətnaməsində özünü qabarıq üzə çıxardı. Qərb Azərbaycan hakimiyyəti ilə problemləri həll etmək əvəzinə, rəsmi Bakı ilə təcavüzkar hesab etdikləri Rusiyanın dili ilə danışmağa üstünlük verir. Avropa Azərbaycan hakimiyyətini sıxdıqca Rusiya yaranmış fürsətdən istifadə edir, siyasi səhnədə özünü dost kimi gözə soxur. Bu siyasət davam etdikcə, Azərbaycan hakimiyyətinin yalnız bir optimal yolu qalır: daxildən real olaraq güclənmək, siyasi islahatlara başlamaq və ölkəni qarşıdakı çətin dövrə hazırlamaq.

Təsadüfi deyil ki, prezident Respublika Günü ilə bağlı tədbirdə siyasi islahatların zəruriliyi ilə bağlı danışıb. **"Siyasi islahatlarda hansısa bir yubanma olarsa, bu da Azərbaycanın qarşısında duran vəzifələrin həlli üçün bizə imkan yaratmayacaqdır. Siyasi islahatlar mütləq aparılmalıdır. Azərbaycan müasir ölkəyə çevrilməlidir. Dünyanın ən inkişaf etmiş ölkələrinin kriteriyaları, bizim xalqımıza, bizim xalqın mentalitetinə xas olan kriteriyalar Azərbaycanda mütləq və mütləq tətbiq olunmalıdır"** - deyə, prezident bildirib.

***

Siyasi islahatlar geniş anlam kəsb edir və onların sırasında "balaca padşahlar"dan - icra başçılarının dəyişdirilməsindən tutmuş Seçki Məcəlləsinin optimal varianta gətirilməsi də daxildir. Siyasi islahatlar üçün kosmetik dəyişiklik yox, real dəyişikliklər olmalıdır.

Avropa Oyunları ərəfəsi Binəqədidə baş vermiş dəhşətli yanğın da bir daha təsdiq etdi ki, hakim komandada dəyişiklik nəinki zəruridir, hətta iqtidarın özü üçün həyati dərəcədə vacibdir. İlham Əliyevin "prezident hər şeyi bilə bilməz" sözləri də komandada təcili islahatlara başlamaq zərurətindən doğan gerçəklik idi. Heç kimdə şübhə yoxdur ki, məhz dövlət başçısının özü Avropa Oyunlarının təşkilatçılığının məsuliyyətini əvvəldən sonadək üzərinə götürməsəydi, komanda bu ağır işi bu səviyyədə yarıda bilməyəcəkdi. Məhz bu səbəbdən də Qərbin aparıcı nəşrlərinin hədəfi ayrı-ayrı komanda üzvləri, sahəyə məsul şəxslər deyil, dövlət başçısı olur. Halbuki Avropanın heç bir ölkəsində, məsələn, yanğına görə dövlət başçısı kəskin tənqid hədəfi ola bilməz, bu işdə məsuliyyəti olan məmurlar cəzalanmalıdır. İqtidar başçısı hətta rayonlarda bir məmurun özbaşınalığının belə məsuliyyətini üzərinə yönləndirir. Bu isə siyasi sistemdə arzuolunmaz avtoritarizmə gətirib çıxarır.

***

Məlumatlara görə, gözlənilən islahatlar da elə "balaca padşahlar"dan başlamalıdır. Xəbərlərə görə, bu islahatlara hazırlıq rayon icra hakimiyyəti başçılarının qanunsuz əməllərindən Prezident Administrasiyasına edilən şikayətlərin monitorinqi əsasında aparılır. Etimadı doğrultmayan icra başçılarının parlament seçkilərinə qədər yeniləri ilə əvəzlənəcəyi deyilir. İddialara görə, avqustun sonunadək narazılığın çox olduğu bir sıra rayonlarda, eləcə də paytaxt Bakının bir neçə icra başçısı da dəyişdirilməlidir. Dəyişikliklərin iqtisadi komandanın ən azı 50 faizini əhatə edəcəyi də deyilir. Bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdudlaşdırılması üzrə təkliflər paketi hazırlandığı barədə də xəbərlər var.

Xarici siyasətə gəldikdə, bu məsələdə də prezidentin yeni düzən yaradacağı deyilir. Son vaxtlar rəsmi Bakının Qərbin tənqidlərinə Avropa institutlarından çıxmaq və əməkdaşlığa yenidən baxmaq kimi hədələyici bəyanatlarla reaksiya verməsinə baxmayaraq, Azərbaycan balanslı siyasi kursu davam etdirmək niyyətindədir. "Stratfor" da bu yaxınlarda yaydığı hesabatda bildirib ki, Azərbaycan balans strategiyasından əl çəkdiyini göstərən hər hansı konkret qərar verməyib. İslam Konfransı Təşkilatının Avropa İttifaqı yanındakı nümayəndə heyətinin sabiq rəhbəri Arif Məmmədovun müəmmalı "müxalifətçiliyindən" sonra hakimiyyət xaricdəki diplomatlarına diqqəti artırıb. Nazir Elmar Məmmədyarovun hazırda mövqeləri laxlayıb və əvəzlənəcəyi barədə xəbərlər artıb. Məlumatlara görə, Azərbaycanı Avropa ölkələrində təmsil edən səfirlərin çoxu vaxtından əvvəl geri çağırıla bilər.

Siyasi reformalar sırasında parlament seçkilərində müxalifətə şans tanınacağı və bu düşərgəyə Qərbi qane edə biləcək sayda mandata sahib olmaq imkanı veriləcəyi barədə də danışılır.

İndilikdə Seçki Məcəlləsinə ciddi dəyişiklik edilməsi zaman baxımından real görünmür, amma sıxılmış və qanunverici orqandan kənarlaşdırılmış müxalifətin mandat almasına əngəl olmamaq iqtidara Qərblə qarşıdurma dövründə rahatlıq qazandıra bilər. Real müxalifətə mandat vermək üçün əvvəlki illərdə olduğu qədər çox güzəştə ehtiyac da qalmır. Çünki elə real müxalifət özü "əriyərək" bəlkə də bir fraksiyalıq qala, ya qalmaya. Qarşıdakı dövrdə nələr olacağını zaman göstərəcək...

❑ **"Yeni Müsavat"**

# "Dostluq parkı" ilə bağlı yeni həbslər

## Vaxtilə ATV-nin binasının altındakı torpağı satan bələdiyyə sədrinin də istintaqa cəlb ediləcəyi gözlənilir

**Səbayel rayonu ərazisindəki "Dostluq parkı"nın satılmasında adı keçən bir neçə şəxs həbs olunub. Həbs olunanlar Səbayel bələdiyyəsinin keçmiş üzvləridir. Report.az xəbər verir ki, Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) əməkdaşlarının keçirdiyi növbəti əməliyyat zamanı 7 saylı Mənzil Kommunal İstismar Sahəsinin (MKİS) rəisi Quliyev Famil Əhməd oğlu və Səbayel rayonu Bibiheybət bələdiyyəsinin baş memarı Etibar Məmmədov tutulub.**

Hər iki şəxs barəsində Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə cinayət işi başlanılıb və Xətai Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan qərarı qəbul edilib. E.Məmmədov və F.Quliyev istintaq təcridxanasına göndərilib.

"Yeni Müsavat"a daxil olan məlumata görə tutulanlar vaxtilə ATV-nin binasının yerini satmış Səbayel bələdiyyəsinin sədri Əhməd Hüseynovla işləyiblər, onun komandasının üzvləri olublar. Ə.Hüseynovun da istintaqa cəlb ediləcəyi gözlənilir.

Qeyd edək ki, BŞBPİ əməkdaşlarının iyunun 15-də keçirdiyi əməliyyat tədbirləri nəticəsində 1972-ci il təvəllüdlü Hüseynov Tərlan Kərim oğlu da tutularaq istintaqa cəlb edilib. T.Hüseynov barəsində BŞBPİ-nin İstintaq İdarəsində Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq,



külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb.

Xətai Rayon Məhkəməsinin qərarı ilə T.Hüseynov barəsində 3 ay müddətinə həbs-qətimkan qərarı çıxarılıb. O, Kürdəxanı qəsəbəsində yerləşən 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır. T.Hüseynovun hüquqi nümayəndələri onun barəsində Xətai Rayon Məhkəməsində çıxarılan həbs-qətimkan qərarının dəyişdirilməsi üçün Bakı Apelyasiya Məhkəməsinə şikayət ərizəsi ilə müraciət etsələr də, dünən keçirilən prosesdə onun həbsdə saxlanılması barədə qərar çıxarılıb.

"Dostluq parkı"nda qanunsuz tikilən villaların sökülməsi ilə bağlı Prezident İlham Əliyev ötən ay keçirdiyi müşavirədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova tapşırıq vermişdi. Tapşırığa əsasən, həmin parkdakı villaların sökülməsinə başlanılıb. Qeyd edək ki, həbs olunan şəxslərdən biri T.Hüseynov tanınmış rejissor xalq artisti Tofiq İsmayılovun kürəkənidir.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015



# "Ermənistan Maydanı" gerçək ola bilərmi?

**Hüseynbala SƏLİMOV**

**Bəzən insanlar bu və ya başqa məsələyə münasibət bildirəndə başa düşmək olmur ki, onlar belə düşünürlər, yoxsa sadəcə, hadisələrin belə olmasını və bu istiqamətdə - məhz onların istədikləri səmtdə cərəyan etməsini arzulayırlar?..**

Ermənistandakı etirazlarla bağlı da belə oldu. Burada da ölkənin Rusiyanın siyasi orbitindən qopmağa çalışmaq arzusunu görmək istəyənlər tapıldı. Hətta Rusiya mətbuatı da bununla bağlı öz narahatlığını sezdirdi...

Rusiya ondan qopmağa çalışan hər dövlətdən özü üçün nəsə qopara bilir. Buna söz yoxdur. Amma ağıllı insanlar dərk edir ki, son nəticədə Rusiya özü ilə təkbaşına qalmaq aqibətini yaşamalı olur...

Ermənistanda etirazçılar dedi ki, onların elektrik tariflərini aşağı salmaqdan savayı tələbləri yoxdur. Amma bir detal diqqəti çəkdi ki, polis daha etirazçılara təzyiq etməkdən çəkinir. İnsanlar etiraz etdikləri yerdə çadırlar və sığınacaqlar qurmağa başladılar. Bəlkə elə bu detal müşahidəçilərdə "maydan" təəssüratı yaratdı? Bilmirik. Bilirsiniz, Ermənisatnda da elə əvvəllər etirazlar olmuşdu. Amma onlar hiss olunacaq dəyişikliklərə gətirib çıxarmadı...

Təbii, Ermənistanın Rusiyadan dönüb Qərbə üz tutması yaxşı olardı. Təbii, ölkənin kriminal siyasi klanın əsarətindən qurtulması da yaxşı olardı... Amma bəzi nüanslar da var... Təəssüf, Qərbdə məskunlaşan ermənilər də hakimiyyətdə olan kriminal siyasi klan kimi Qarabağ problemində mürtəce mövqe tutmaqdadırlar...

Əgər onlar bu vaxta qədər fərqli düşünsəydilər, Azərbaycana və Türkiyəyə qarşı düşmənçilik siyasəti yürütməsəydilər bu, yerli hakimiyyətə də, cəmiyyətin özünə də təsir edərdi. Amma onlar belə etmir. Ona görə də demək olmaz ki, bu gün bütün ermənilər Ermənistandan idarə olunur. Əslində bəlkə də hər şey tərsinədir...

Bir-iki il bundan əvvəl, Ermənistanda etirazlar olarkən məlum oldu ki, müxalif siyasi qüvvələr Dağlıq Qarabağın tanınmasını tələb edirlər... Ona görə də elə o vaxt bizdə belə bir sual yarandı: görən, Azərbaycan üçün nə daha yaxşıdır-axmaq Serj Sarkisyan, yoxsa ondan ağıllı və tədbirli başqa erməni siyasətçisi?..

Bir qədər də keçmişə baş vuraq. Axırda bəzi məsələləri etiraf etsə də, Azərbaycanla davamlı siyasi münaqişənin perspektivsiz olduğunu anlasa da, Azərbaycanın ərazilərinin hamısı L.Ter-Petrosyanın vaxtında işğal olunmuşdu və güman edirik ki, bunu heç kim danmaz...

Düzdür, demək olar ki, Qarabağ problemi də bir dalğa idi və bu dalğadan həmin erməni siyasətçiləri müəyyən dividentlər götürdülər. Məsələn, hətta biz özümüz belə inkar edə bilmərik ki, Qarabağ məsələsinin azərbaycanlılarda milli şüurun oyanmasında, Rusiya imperiyasına daha realist münasibətin formalaşmasında və bu prosesin nəticəsi kimi Azərbaycanın müstəqillik əldə etməsində böyük rolu oldu...

Amma ortada bir fərq var. Əgər Qarabağ problemi bizi Rusiyadan ayırdısa və bizi daha realist və praqmatik olmağa vadar etdisə, Ermənistanı əksinə Rusiya imperiyasına "qaynaq" etdi - ermənilər neçə illərdir ki, özlərinin siyasi nəfslərinin əsirinə çevriliblər. Düşünürlər ki, bəli, Rusiya ilə birgə olmaq onlara Qarabağı əllərində saxlamağa yardımçı olub. Amma başa düşmürlər ki,

Qarabağı müvəqqəti ələ keçirməklə son nəticədə bütün Ermənistanı itiriblər...

Burada yada M.Saakaşvilinin BMT-dəki çıxışından bir məqam düşür. O, soruşmuşdu ki, Rusiya Qarabağın Ermənistana verilməsini və yaxud da ki, Azərbaycana qaytarılmasını istəyirmi?..

Özü də çavab verməşdi ki, Rusiya bu iki variantın heç birini istəmir-o, sadəcə, istəyir ki, Qarabağ ortada bir şirnikləndirici alma kimi qalsın, onunla həm Ermənistanı, həm də Azərbaycanı idarə edə bilsin...

Ona görə də Ermənistanda müsbət təbəddülatın başlandığına o vaxt inanacağıq ki, orada insanlar bu məqamı başa düşmüş olsunlar. Onlar hələ ya bunu başa düşmürlər, ya da ki, başa düşmək istəmirlər...

Elə bu səbəbdən Ermənistanda "maydan" məsələsi, o, hətta baş versə belə *(hərçənd bunun ehtimalı böyük deyil!)*, bizim üçün bir o qədər də maraqlı və cəlbedici görünmür. Ona görə ki, ermənilər öz siyasətlərini kompleks şəkildə təftiş etməlidir. Fikirləşməlidirlər ki, görək, bu dırnaqarası "genosid" məsələsi onlara nə verir? Başa düşməyə çalışmalıdırlar ki, Qarabağ problemi onlara son nəticədə nə vəd edir?..

Hələki onlarda belə istək nəzərə çarpmır. Ona görə də biz bir az pessimistik və hesab edirik ki, necə deyərlər, suların durulmasına çox var...

# Abbas Abbasov doğmalarını çıxılmaz vəziyyətə salıb

## Sabiq vitse-primyerin deputat oğlunun da həbs edilə biləcəyi deyilir

**"Nadir Abbasovun həbsindən sonra Abbas Abbasovun deputat oğlu Aydın Abbasova da həbs təhlükəsi yaranıb. İddialara görə, hakimiyyət Abbas Abbasova sarsıdıcı zərbə vurmaq üçün Aydın Abbasovun da həbsini nəzərdən keçirir".**

Bu barədə "Azadlıq" qəzeti məlumat yayıb. Qəzetin yazdığına görə, Abbas Abbasovun qardaşı Nadir Abbasovun həbsi həm də Azərbaycan hakimiyyəti ilə baş nazirin sabiq birinci müavini arasındakı gərginliklə bağlıdır. Qeyd edək ki, "Milyarderlər İttifaqı"nı Kremlin məkrli layihəsi hesab edən hakimiyyət özünə yönəlik bu projedə Abbas Abbasovun da əsas rol almasını ona bağışlamır. Abbas Abbasov dəfələrlə ölkə başçısı İlham Əliyevə sadiq olduğunu bəyan etsə də, hakimiyyət onun səmimiliyinə inanmır.

Qeyd edək ki, ötən həftə A.Abbasovun qardaşı Nadir Abbasov Azərbaycan Beynəlxalq Bankından götürdüyü 10 milyon dollar krediti ödəyə bilmədəyi üçün DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparılıb. Onun bir müddət əvvəl Gəncədə keçmiş Yeyinti Ticarəti İdarəsinin bazasında soyuducular tikmək üçün kredit götürdüyü və pulu vaxtında ödəyə bilmədiyi üçün saxlandığı bildirilir.



Abbas Abbasov



Aydın Abbasov

Hələ ki bu xəbər nə rəsmi qurumlar, nə də A.Abbasovun yaxınları tərəfindən təkzib olunmayıb. Hətta Abbas Abbasovun deputat oğlu Aydın Abbasov da məsələyə reaksiya verməyib. Dünən də A.Abbasovla danışmaq cəhdimiz nəticə vermədi. Deputat telefonu açmadığından onun özünün həbs təhlükəsi ilə üzləşdiyi barədə iddialara münasibət öyrənə bilmədik. Düzdür, deputatın həbs olunması elə də sadə məsələ deyil. Bunun üçün Milli Məclisin toplanması, baş prokurorun təqdimatı əsasında onun mandatdan məhrum edilməsi gərəkdir. Üstəlik, A.Abbasov bir neçə gün öncə AŞ PA-nın sessiyasında iştirak etməkdən ötrü Azərbaycan nümayəndə heyətinin tərkibində Strasburqda olub. A.Abbasov özü də atası ilə bağlı açıqlamalarında kifayət qədər korrekt davranmağa üstünlük verir. Əmisi N.Abbasovun həbsi barədə sualın cavabında isə o, xəbəri nə təsdiq, nə də təkzib edib.

Əlavə edək ki, mətbuatda bir neçə gün əvvəl Abbas Abbasovun digər qardaşı Həmid Abbasovun həyat yoldaşının Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tərəfindən bağça müdiri vəzifəsindən azad olunduğu barədə də xəbər verilib. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev isə "Yeni Müsavat"a açıqlamasında yayılan bütün xəbərləri təkzib edib. O, əməkdaşımızın suallarına "yayılan məlumatların heç bir əsası yoxdur" deməklə kifayətlənib.

❑ **Vüqar MURAD**

# Nəqliyyat Nazirliyinə görə iş adamı aclığa başladı

## Dönməz Məmmədov Tiflisdəki səfirliyimiz qarşısında özünü yandırmağa hazırlaşır; Ziya Məmmədovdan avtobus alan sahibkarı ölkədən dərbədər salan səbəb...

**Azərbaycanlı iş adamı Dönməz Məmmədov Gürcüstanda, Rustavi şəhəri yaxınlığından keçən yolun kənarında aclığa başlayıb. Bu azərbaycanlı iş adamının Gürcüstanda keçirdiyi sayca ikinci aclıq aksiyasıdır. O, Nəqliyyat Nazirliyinin Bakı Şəhər Nəqliyyat Departamentinin (BŞND) rəisi və müavinləri tərəfindən aldadılmasına aclıq etməklə etiraz edir.**





D.Məmmədov "Yeni Müsavat"ın əməkdaşına deyib ki, sahibi olduğu "Amal-D" MMC şirkətinə məxsus "Daewoo" markalı 17 avtobus bu ilin mayında xətdən çıxarılıb və Bakı Şəhər Nəqliyyat Departamentinin cərimə meydançasına aparılıb: "O vaxt şikayət etdim, bir nəticə olmadı. Gürcüstana gəlib aclığa başladım. Bundan sonra məni BŞND-yə çağırdılar. Departamentin rəisi Elimxan müəllim, müavini Davud və departamentin sərnişindaşıma şöbəsinin rəisi Yunislə birgə qəbul etdilər. Dedilər ki, 501 saylı marşrutun açılışına icazə verirlər.

O marşrut üzrə hörmətli nazirin (Ziya Məmmədovu nəzərdə tutur-E.M.) özünün xaricdən gətirdiyi "Daewoo" markalı avtobuslar işləyir. Departamentdə olandan sonra elə həmin gün maşınları cərimə meydançasından buraxdılar. Onlarla görüşdən çıxandan sonra departamentin işçilərindən biri dedi ki, Yunis müəllim deyir ki, gözləsin. Gözlədim, gəldi dedi ki, rəhbəri olduğum MMC-yə məxsus olan digər marşrutu - 509 saylı, Sumqayıt-Binə ticarət mərkəzi xətti üzrə olan marşrutu anlaşılmazlıq olub deyə qeyri-sahibkara verməşik. Avropa Oyunları qurtarana yaxın, iyunun 20-də özünüzə qaytaracağıq. Dəfələrlə teleqram vurmuşam. Teleqramlarım Dövlət Nəqliyyat Xidmətinə (DNX) göndərilir. Oradan da BŞND-dan izahat istənilir. BŞND-dan DNX-yə əvvəlcə yalan məlumat verdilər ki, guya 509 saylı marşrut 507 saylı marşrutla birləşib və rəhbəri olduğum MMC-yə verilib. Yenidən DNX-yə bütün sənədləri təqdim etdim ki, həmin marşrutlar ayrı-ayrı marşrutlardır. Bundan sonra BŞND DNX-yə yalan məlumat verdi ki, guya 509-da işləyən avtobuslar köhnə "Otoyol" markalı avtobuslardır. Bu dəfə BŞND-dən hər bir avtobusa görə hər ay aldığım fərqlənmə nişanlarını DNX-yə təqdim etdim. Həmin fərqlənmə nişanlarında avtobusların 2012-ci il istehsallı olduğu və lizinqlə alındığını özləri də yazıblar".

**Hazırda Rustavi yolunun kənarında aclığa başlayan sahibkar deyir ki, rəhbəri olduğu MMC-yə Nəqliyyat Nazirliyi sərnişindaşıma ilə məşğul olmaq üçün 2017-ci ilə qədər lisenziya verib:** "Nəqliyyat Nazirliyi avtobusların hər birinə 2017-ci ilə qədər qüvvədə olan lisenziya kartı verib. Lisenziya kartı ola-ola BŞND marşrutu qeyri-sahibkara verib. Lisenziya adımızadır, amma hər ay bizə verilməli olan fərqlənmə nişanını vermirlər deyə avtobuslar xəttə çıxa bilmir.

2 aydır ki, BŞND bizi çox pis duruma salıb, maşınların kreditlərini ödəyə bilmirik, 100 mindən artıq ziyana düşmüşük. Mən heç kəsi təhdid etmirəm, əgər marşrutu qaytarmasalar, 3 günə qədər aidiyyəti orqanlar bu məsələyə münasibət bildirməsə, Tiflisdə Azərbaycan səfirliyinin önündə və ya Azadlıq meydanında özümü yandıracağam".

**Yada salaq ki, 17 il sərnişin daşıması ilə məşğul olan D.Məmmədov ondan rüşvət istənilməsi haqda da əvvəlki müraciətində bildirmişdi. Demişdi ki, 501 saylı marşrut açıldığı gündən rəhbəri olduğu MMC marşrut üzrə sərnişin daşımalarını həyata keçirib. May ayında isə Nəqliyyat Departamenti MMC-yə işləməyə icazə verməyib:** "Səbəb isə odur ki, Sumqayıt Şəhər Nəqliyyat Departamenti aylıq ödədiyim puldan əlavə məndən 300 manat da pul istədi. Mən isə bundan imtina etdim. Çünki bizim qazancımız buna imkan vermir. Bundan əlavə, fevral ayında manat ucuzlaşandan sonra bizim ödəmələri də dolların kursuna uyğun olaraq artırdılar. Əlavə tələb olunan 300 manatı verməditiyimə görə mənim şirkətimin işinə mane oldular. May ayının əvvəlindən başlayaraq bizim avtobusların işləməsinə imkan verilmədi. May ayının 4-dən 22-nə qədər 17 avtobusu yığıb, Nəqliyyat Departamentinin həyətində saxladılar. Baş İdarədə mən onlarla görüşəndən sonra maşınları geri qaytardılar və dedilər ki, işləməyə davam edə bilərsiniz. Mən maşınları Sumqayıt Şəhər Nəqliyyat Departamentindən xilas etdim, növbəti gün isə Bakı Şəhər Nəqliyyat Departamenti heç bir əsas olmadan maşınları cərimə meydançasına yığdı".

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S** Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.*

# Azərbaycanda gender siyasəti

## Bu məsələdə Ümid Partiyası aktiv rol oynayır

**Ümid Partiyası qadınların ictimai-siyasi proseslərdə, cəmiyyətin inkişafında yaxından iştirak etməsi, onların verdiyi töhfələrin düzgün qiymətləndirilməsi, öz yaşam tərzləri ilə bağlı seçimlər etməsi və zorakılıq qorxusundan azad yaşaya bilməsinə imkan yaradan cəmiyyətin qurulması və iqtisadi mühitin yaradılması, habelə idarəçilik prosesinə qadınların cəlb olunması istiqamətində də ciddi fəaliyyət göstərir.**

Bu səbəbdən 9 iyun 2014-cü ildə Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadənin sərəncamı ilə Gender Bərabərliyi şöbəsi yaradılıb. Bu şöbə Azərbaycan partiya sistemində ilk yaradılmış şöbədir. Şöbənin yaradılmasından bir il keçir. Gender bərabərliyi şöbəsinin müdiri Həcər Abbaslı partiyanın mətbuat xidmətinə qarşıda duran vəzifələr və görülən işlərlə bağlı açıqlama verib: "Gender bərabərliyi şöbəsi Partiyanın gender bərabərliyi siyasətini həyata keçirir. Şöbənin yaradılmasında məqsəd qadın hüquqlarının və gender bərabərliyinin təmin edilməsi, qadınların hüquqlarının pozulmasının qarşısının alınması, erkən nikah və məişət zorakılığı hallarının azaldılması, qadınların qərarqəbuletmədə iştirakçılığının gücləndirilməsi, ictimai-siyasi və sosial həyatda yaxından iştirakını təmin edilməsi, qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, qadın sahibkarlığının inkişafı və bu sahədə nailiyyətlərin əldə olunması istiqamətində müəyyən işlər görmək, bu istiqamətdə təkliflərlə çıxış etməkdir. Gender bərabərliyi şöbəsinin missiyasına dövlət idarəçiliyində qadınların rolunun artırılmasına dəstək olmaq, qadın problemləri və gender məsələləri sahəsində beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birgə əməkdaşlıq həyata keçirmək, qadın hüquqları və gender bərabərliyi sahəsində mütəmadi olaraq maarifləndirici tədbirlər təşkil etmək, Azərbaycanın ictimai-siyasi proseslərində qadınların rolunu artırmaq, qadın hüquqlarına dair qanunvericilik aktlarının, dövlət proqramlarının və digər layihələrin hazırlanmasında iştirak etmək və digər bu kimi vəzifələr aiddir.

Şöbə fəaliyyət göstərdiyi bir il müddətində gender bərabərliyi sahəsində çoxlu sayda maarifləndirici tədbirlər və seminarlar keçirib. Həmçinin qadınların seçki prosesinə cəlb olunması istiqamətində müxtəlif işlər görüb. Qadın namizədlərin irəli sürülməsinə maksimum dəstək veririk. Bunun nəticəsidir ki, bu il keçiriləcək parlament seçkilərində Ümid Partiyasından namizəd olacaq qadınların sayı artıb ".



Həcər Abbaslı əlavə olaraq qeyd etdi ki, iyul ayından etibarən iki ay müddətində Gənc Liderlər Akademiyası fəaliyyətə başlayacaq və gənc liderlərin hazırlanması üçün müxtəlif mövzularda təlimlərin keçirilməsi nəzərdə tutulur.



# İqbal Ağazadə növbəti dəfə gənc fəallarla görüşüb



**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə partiyanın gənc fəalları ilə növbəti dəfə görüşüb. Görüşdə regionda və dünyada baş verən ictimai-siyasi proseslər, seçkilərə hazırlığın səviyyəsi, ölkəmizdə keçirilən I Avropa Oyunları, qarşıdan gələn parlament seçkiləri, seçkilərə hazırlıqla bağlı görülən işlər, qarşıda duran vəzifələr müzakirə olunub. Partiya sədri gəncləri maraqlandıran suallar cavablandırıb və gənclərə tapşırıq və tövsiyələr verib.**



Qeyd edək ki, Ümid Partiyasının mərkəzi qərargahında hər həftənin şənbə günü Ümid Partiyasının sədri İqbal Ağazadə fəal gənclərlə görüşür. Onları maraqlandıran sualları cavablandırır və müxtəlif mövzularda müzakirələr aparır.





# Rüfət Muradlı: "Dünya Doğu Türküstandakı qətliamlara susmamalıdır"

**Son günlər Çinin Doğu Türküstan bölgəsindən gələn xəbərlər cəmiyyətdə böyük nigarançılıqla izlənir. Kommunist Çinin insanlığa zidd hərəkətləri Azərbaycanda da ciddi etirazlarla qarşılanır. Baş verənlərlə bağlı Ümid Partiyası sədrinin müavini Rüfət Muradlı münasibətini bildirdi:**



" Bu olayları həyəcan və üzüntü ilə izləyirik. Nə yazıq ki, dunya Doğu Türküstanda baş verənlərə susur. Təkcə ötən həftə 28 uyğur türkü qətliamın qurbanı olub. Milli və dini kimliyinə görə insanlar soyqırıma məruz qalır. KİV-lərdə yayılan fotolarda diri-diri dərisi soyulan, hamilə qadınların bətnində körpəsinin öldürüldüyü kimi səhnələri vəhşət içində izləyirik. BMT TŞ-nin daimi üzvü olan Çinin bu vəhşiliklərinə münasibətdə beynəlxalq səviyyədə sərgilənən susqunluq isə BMT-nin növbəti acizliyi kimi dəyərləndirilə bilər. Düşünürəm ki, bu insanlığa zidd, vandallığa qarşı Türkiyə, Azərbaycan və digər türkdilli dövlətlər Çinin ölkələrindəki səfirliklərinə nota təqdim etməli, Türk Dünyasının bir parçası olan Doğu Türküstandakı olayların təcili dayandırılması üçün həyəcan siqnalı çalmalıdırlar"

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015



# Erməni əriyi

Zamin HACI
zaminhaci@gmail.com

*"Həmin yay qoca zahid Silvestro şəhərdə camaatın tanrını o qədər də vecinə almadığını öyrənib yaxınlıqda məskən salmağa qərar verdi"*

**(Dino Bussati, "Zahidin köpəyi")**

**Bakının "Dostluq" parkında tikilən çoxlu villa cənab prezident tərəfindən aşkara çıxarılandan sonra ekskavatorla, zurna-balabanın müşayiəti ilə söküldü. Adam təsəvvürünə gətirə bilmir ki, əgər villaları cənab prezident aşkara çıxarmasa bunun axırı necə olacaqdı. Bəs bu məmurlar hara baxırlar? Atalar demişkən, "Prezident yaxşıdır, ətrafı pisdir". Belə olmaz. Yarıtmaz məmurları da o villalar kimi sökməyin vaxtıdır.**

Söküntü ilə bağlı iclasda cənab prezident onu da qeyd etmişdi ki, bu villaların yiyəsi aşkara çıxarılmayıbdır. Hər kəs boynundan atıbdır. Hətta məndə dəqiq məlumat var, Zakir müəllim Ermənistana top atıb, üstündə də sorğu göndərib, ermənilər isə tüstü ilə cavab veriblər, deyiblər, vallah, bizim villalar deyil, bizim hələlik Bakı yaxınlığındakı "Dostluq" parkında villa tikməyə vaxtımız yoxdur. Qədim zamanlarda hindu qəbilələri bir-biri ilə beləcə, tüstü ilə əlaqə saxlayırmış. Ermənilər onu da xəbər verib ki, heç Ağdam və Füzulinin daşlarını söküb qurtara bilmirik, 20 ildir bu işlə məşğuluq, hələ nə qədər darvaza qalır, bizim başımız qarışıqdır. Əziz və hörmətli oxuculara bu tarixi məlumatı da verim, o zaman Zakir müəllimin niyə sualı ora göndərdiyini anlayarlar: həmin parkı sovet dövründə məhz ermənilərlə və qalan 13 müttəfiq SSRİ xalqları ilə dostluq münasibətilə "Dostluq" adlandırmışdılar.

Uzun sözün qısası, villaların yiyəsi çıxmadı, ardıyca prokurorluq işə girişdi, dünənə olan informasiyaya görə 4 nəfər tutulubdur. Bunlardan biri parkın ərazisində tikintiyə icazə verən bələdiyyə işçisidir. İkincisi ərazinin JEK idarəsində tualet təmirinə baxan santexnikdir. Üçüncüsü Samux rayonunun memarıdır, dördüncüsü isə villalar sökülən vaxt ərazidə dəmir yığan Balaxanı kənd sakini Ağəli bəydir. İstintaqla bunların hər birisinin ağır cinayətkarlığı dəqiq, dəhşətli, aydın formada sübuta yetibdir. Örnək üçün soruşa bilərsiniz Samux rayon memarının Səbayel rayonuna nə dəxli var? Soruşun. Biz də cavab verərik. İstintaqda ciddi şübhələr vardır ki, əgər əlində imkan olsa Samux rayon memarı da Samux ərazisində belə yiyəsiz, qanunsuz villalar tikilməsinə icazə verə bilərmiş! O cümlədən, Balaxanıdan çürük "Moskviç"lə gəlib ərazidə dəmir qırıntıları aparan Ağəli bəyin təğyir-libas *(yəni paltarını dəyişmiş)* olmuş oliqarxa bənzədiyinə ehtimallar mütləqdir. İlk növbədə, bunun adına baxın: Ağa! Yəni, bu adam işarə vurur ki, ərazinin ağası mənəm. Hətta o qədər öyrədilmiş, xarici casus qüvvədir ki, konspirasiya məqsədi ilə bir hərfi gizlədibdir. Ancaq təbii, bunlar prokurorlarımızın gözündən yayına bilməzdi.

Bunlar burda dursun, sizə nəql eləyim cəsur gömrük orqanlarımızdan. Onlar keçən həftə Gürcüstan sərhədində iki maşın erməni qulağı... üzr istəyirəm, əriyi aşkar edərək tərəfimizdən götürülmüşdür. Fantastik, dünya gömrük tarixinə düşəsi hadisə idi. Bəs bunlar əriyin erməni əriyi olmasını necə tapıblar? Bəlkə əriyin pasportu olur, ya dənəsi əyri imiş? Bəlkə əriyi gətirən adam lazımi "görüm-baxım" eləmədiyi üçün ərik erməni çıxarılıb? Qətiyyən. Sizi çox intizarda qoymayım: gömrükçülərimiz ərik yeşiklərinin içindən... erməni dilində qəzetlər tapıblar! Bununla da əriyin erməni əriyi olması isbata yetibdir. İndi sərhəd rayonlarında yaşayanlar gərək ayıq-sayıq olsunlar. Külək bir dənə erməni qəzetini gətirib sənin həyətinə atsa MTN-in haqqı çatır ki, səni tutub qoduqluğa salsın. Düzgün adamsansa, həyətində erməni əlifbasının nə işi vardır?

Bunlar hamısı vətənpərvərlik amilləridir. Yer qalmadı, antierməni milli fəaliyyətimizin başqa üsulları haqda sabah yazaram. Mütləq oxuyun, sonra yiyəsiz evinizi sökməsinlər.

# "O, cəhənnəm odunda yanacaq" - siyasətçilər Primakov haqda danışdılar

**Rusiyanın keçmiş baş naziri və XİN rəhbəri olmuş Yevgeny Primakov 86 yaşında ölüb. Vida mərasimi Moskvadakı İttifaqlar Evində keçirilib, ölkə Patriarxı Kirill cənazə duası etdikdən sonra sabiq baş nazir Novodeviçye qəbiristanlığında dəfn edilib. Primakovla vidalaşanlar arasında Rusiyanın dövlət və hökumət nümayəndələri, o cümlədən SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov də olub.**



Bununla da Rusiya dövləti keçmiş məmura diqqətini ifadə etmiş olub. Xatırladaq ki, Primakov 1991-1996-cı illərdə Rusiyanın Xarici Kəşfiyyat İdarəsinə başçılıq edib. 1996-cı ildə xarici işlər naziri olub. O, XİN rəhbəri vəzifəsini öz karyerasında ən yüksək post adlandırıb. 1998-ci ilin avqustunda Primakov baş nazir olub və 1999-cu ilin may ayına kimi bu vəzifəni icra edib.

Ekspertlər hesab edir ki, keçmiş sovet və Kommunist Partiyasının tanınmış simalarından olan Primakov öz xalqı üçün nə qədər önəmli fiqur olsa da, Azərbaycan dövlətinə və xalqına qarşı cinayətə imza atmış şəxs kimi tarixdə qalacaq. Çünki o, artıq üçüncü onillikdir ki, Azərbaycan siyasətində qara ştrixlərlə xatırlanır. Belə ki, 1990-cı ildə Bakıda baş vermiş yanvar hadisələri ərəfəsində Bakıya Kremlin nümayəndəsi kimi məhz Primakov gəlmişdi. O, Bakıya gələn SSRİ partiya və dövlət xadimləri nümayəndə heyətinə rəhbərlik edib. Müstəqillik tərəfdarlarını öz yolundan döndərə bilməyən Kreml elçiləri Bakıya qoşun yeridərək Azərbaycan paytaxtını işğal etdilər. Qanlı hadisələr nəticəsində 134 dinc sakin öldürüldü, 700-dən çox adam yaralandı, onlarla adam itkin düşdü.

**"O, Azərbaycan xalqının yaddaşında 1990-cı il 20 yanvar faciəsinin müəllifi kimi qalıb". Bu barədə "Amerikanın Səsi"nə o dövrün milli-azadlıq hərəkatının liderlərindən Etibar Məmmədov bildirib:** "1990-cı ilin yanvarında bizimlə görüşdə Primakov öz oğlunun məzarına and içdi ki, Bakıya qoşun yeridilməyəcək. Lakin o, bizi aldatdı. Sonra Qorbaçov etiraf edib ki, Bakıya qoşunların yeridilməsini məhz Primakov tələb edib".

**Sabiq müdafiə naziri Rəhim Qazıyev** təkcə yanvar faciəsində görə deyil, həm də Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalında, 1993-cü ildə Xalq Cəbhəsi hökumətinin süqutunda, Azərbaycanda avtoritar rejimin təkrar qurulmasında Primakovun rolunu qeyd edib. Primakovun rəhbərlik etdiyi komanda Azərbaycanı müstəqillik yolundan döndərə bilməyib və ölkə müstəqilliyinə qovuşub. Lakin o zaman bu komanda Azərbaycanla Ermənistan arasında əks-cəbhələşmə yarada bilib, iki ölkə arasında düşmənçilik salıb. İki ölkə arasında münaqişə hələ də həllini tapmayıb.

**Yeri gəlmişkən, 1990-cı il hadisələrindən sonra Moskvada həbs edilərək Lefortova zindanına göndərilən Etibar Məmmədov "Lefortovo gündəliyi" kitabında Primakov barədə də bəhs edib. 06.02.90-cı il tarixdə o yazıb:** "Bu gün istintaq zamanı söhbət yenə yanvarın 15-də baş verən hadisələr ətrafında getdi. Həmin günün şahidi olduğum hadisələrini şərh etdikdən sonra axşam MK-dakı görüş haqqında ətraflı danışdım. Primakov və Girenkonun tutduğu açıq-aşkar fitnəkar mövqeni ifşa etməyə başladım. Müstəntiqin davranışından hiss olunurdu ki, bu söhbəti protokola salarkən yumşaltmağa və ümumiləşdirməyə çalışır..."

**"Primakov Azərbaycan tarixində 20 Yanvar faciəsinin, cinayətinin əsas təşkilatçısı kimi qalır və qalacaq". Milli Azadlıq Hərəkatının liderlərindən biri, Milli Məclisin keçmiş sədri İsa Qəmbər Y.Primakovun Azərbaycan tarixində yerini şərh edərkən AzadlıqRadiosuna belə deyib. O bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Qızıl Ordunun Bakıya yeridilməsində həlledici qərarı Primakov verib, məhz onun Qorbaçova təklifi və tövsiyəsi ilə. İ.Qəmbər deyib ki, 1991-ci ilin yanvarında - faciənin birinci ildönümündə Y.Primakovun adı 20 Yanvar faciəsinin günahkarları siyahısına salınıb. Amma 1993-cü ildə hakimiyyət dəyişikliyindən sonra onun adı bu siyahıdan çıxarılıb:** "Həmin dövrdə Primakov Rusiyada rəhbər vəzifə tuturdu. Biz bütün günahkarların - istər Bakıda oturan, istər Rusiyada - hamısının adının siyahıya salınmasını tələb edirdik. Bu gün də eyni mövqedəyik. 1991-ci ildə, Mütəllibov hakimiyyəti zamanı vəzifədəkilərin adlarını 20 yanvar günahkarları siyahısından çıxarmağa çalışırdılar. Eyni xətti 1994-cü ildə Heydər Əliyev davam etdirdi. Biz hadisədə günahkarların hamısının qanun qarşısında cavabdehlik daşımasının tərəfdarı olmuşuq".

**İ.Qəmbər bildirib ki, Y.Primakov 20 Yanvar faciəsindən bir neçə gün öncə Bakıda olub, görüşlər keçirib. Onun sözlərinə görə, yanvarın 14-də Kommunist Partiyasının Mərkəzi Komitəsi Xalq Cəbhəsinin rəhbərliyini Əbdürrəhman Vəzirovla görüşə dəvət edib:** "Xalq Cəbhəsinin İdarə Heyətindən 10-12 nəfər həmin görüşə getdik. Başqa dəvət edilənlər də varıydı. Amma orda bildik ki, görüş Vəzirovla deyil. Ümumiyyətlə, Vəzirov heç otaqda deyildi. Əsasən Moskvadan gələnlərlə ölkədəki vəziyyət müzakirə edildi. Kifayət qədər sərt bir söhbət alındı".

**İ.Qəmbər əlavə edib ki, hər bir şəxs etdiklərinin cəzasını almalıdır:** "Yaşadıqları vaxt almırlarsa, ölümlərindən sonra insanların xatirəsində və ya tarix səhifələrində olsa belə".

"1990-cı illərdə Qorbaçov, Yazov və Primakov Azərbaycanı bölüşdürmüşdülər və bunu rəsmiləşdirmək istəyirdilər. Azərbaycana radikal İslam damğası vuraraq buranı dağıtmaq istəyirdilər". APA-nın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə bu il 20 Yanvar şəhidlərinin yaxınları ilə görüşdə belə demişdi.

**Milli Azadlıq Hərəkatının liderlərindən olan sabiq baş nazir Pənah Hüseyn "Yeni Müsavat"a bunları söylədi:** "Primakov Azərbaycan tarixində 20 yanvar qırğınının səbəbkarlarından biri kimi qalıb. Sözün doğrusu, onun dünya səviyyəli diplomat və ya dövlət xadimi olması haqqında danışmaq mənimçün çətindir. Sadəcə, Rusiyanın dövlət xadimlərindən biri kimi xarakterizə oluna bilər".

"Deyirlər ki, Primakov Rusiyanın yeni tarixinə düşüb. O, Azərbaycanın da yeni tarixinə cəllad, qaniçən bir insan kimi düşüb. Onun yeri birbaşa cəhənnəmdir. 20 yanvar qırğınına görə o, cəhənnəm odunda yanacaq". Bu fikirləri isə qəzetimizə Milli Azadlıq Hərəkatının liderlərindən biri, sabiq daxili işlər naziri İsgəndər Həmidov söylədi. Keçmiş nazir bildirdi ki, əks təqdirdə, tələbəlikdə agent olmuş, yoldaşlarını satmış bir adamı bu qədər kürsülərdə yüksəltməzdilər: "20 Yanvar hadisəsinin törədilməsinin başında Primakov dayanmışdı. Onun yeri birbaşa cəhənnəmdir".

**İ.Həmidov Rusiyanın Primakova bu qədər yüksək qiymət verməsini təbii saydı:** "Bu adam Rusiya hökumətinin, sovet imperiyasının siyasətini həyata keçirən bir insan idi. Təəssüf ki, Azərbaycan nəinki onu cəzalandıra bilmədi, hətta Milli Məclisdə onun adını cinayətkar qrupun siyahısından çıxarıb onun əvəzinə Qorbaçovu saldılar. Amma bura gələn qrupun başında Primakov dayanmışdı. 19 yanvarda demişdi ki, qoşun Bakıya girməyəcək, heç nə baş verməyəcək. Camaatı aldatdı, insanlarımızı güllə qabağına verdi. Bizim camaat qəhrəmanlıq etdi, bu, öz yerində. Amma Primakovun törətdiyi əməl insanlığa qarşı yönəlmiş bir cinayət idi. Ona görə də yeri birbaşa cəhənnəmdir".

**Cavid TURAN**



**İsa Qəmbər:**
"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Qızıl Ordunun Bakıya yeridilməsində həlledici qərarı Primakov verib"



**Pənah Hüseyn:**
"O, Azərbaycan tarixində 20 Yanvar qırğınının səbəbkarlarından biri kimi qalıb"



**İsgəndər Həmidov:**
"Onun yeri birbaşa cəhənnəmdir"

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015

**Ermənistandakı etirazlar Rusiyanın Güney Qafqaza yönəlik siyasətinin mahiyyətini yenidən anlamaq üçün təzə fon yaratdı. Hadisələrə Kreml rəsmilərinin ilkin reaksiyası əgər təmkinli xarakter daşıdısa, Rusiyanın ekspert dairələri sərt yanaşma ortaya qoydular, bəzi analitiklər isə dərhal uzaqgedən mülahizələr səsləndirdilər və indi də səsləndirməkdədirlər.**

# Kremldən İrəvana Qarabağ şantajı - Bakı üçün yeni fürsət?

## Rusiya işğalçı ölkəni işğal da edə bilər; bunun üçün hərbi müdaxiləyə lüzum yox - Gümrüdəki baza yetərlidir; şimaldan gələn "7 rayon vədi"nə inanmaq olarmı...



Aydın məsələdir ki, Moskvanın Cənubi Qafqazda yeganə və əvəzsiz forpostu olan, bölgədə özünün yeganə legitim hərbi bazasını yerləşdiyi Ermənistanda qarışıqlığın və xaosun yaranması ən çox şimal qonşumuza sərf etmir. Kremlə yaxın siyasi şərhçilərin **(Sergey Markov və s.)** qonşu ölkədəki proseslərə reaksiyasından bu narahatlığı görmək çətin deyil. Məsələn, Markovun iddiasına görə, hazırda Ermənistanda baş verənlər bilavasitə ABŞ xüsusi xidmət orqanlarının işidir.

Belə çıxır, Ermənistan Rusiyanın ovucunun içində ola-ola, Amerika ora müdaxilə eləməyi, narazı xalqla işləməyi, oranı qarışdırmağı bacarır. O halda ABŞ xəfiyyəsi daha çevik və güclüdür, deməli. Lakin Moskvadan verilən qiymətləndirmələr blef də ola bilər. Ayrı sözlə, bu qəbildən dəyərləndirmələrlə Rusiyanın Ermənistana hərbi müdaxiləsi üçün, bu ölkəni tam işğal eləməsi üçün zəmin və bəhanə yaratmaq niyyətinin güdüldüyü istisna deyil.

Hərbi müdaxilədən ötrü isə cırtdan Ermənistana, tutaq ki, Ukrayna kimi ordu yeritməyə ehtiyac yoxdur. Gümrüdəki müasir hərbi texnika və sursatla təchiz olunmuş 102 saylı 5 minlik baza kifayətdir. Onu da yaddan çıxarmayaq ki, Ermənistanın xarici sərhədlərini də *(Türkiyə, İran)* rus silahlıları qoruyur...

***

**Artıq işğal variantının anonsları incə çatdırışlar şəklində səslənməkdədir. Məsələn, moskvalı politoloq Konstantin Fedorenko bəyan edib ki, "Rusiya Ermənistandakı situasiyaya qarışa bilər" (axar.az). Sitat:** "Hələlik Kreml İrəvanda baş verən etirazları təmkinlə izləyir. Hesab edilir ki, Ermənistanda yaşananlar ABŞ-ın növbəti zərbəsidir. Ancaq etiraz edənlərin tələbləri ictimai-iqtisadi tələblərlə məhdudlaşır. Əgər siyasi tələblər ön plana çıxarsa, Rusiya mütləq Ermənistana öz təsirlərini artıracaq. Moskva Ermənistana Dağlıq Qarabağ vasitəsilə təzyiq göstərə bilər".

Bu, elə haqqında danışılan hədələrdən biridir. Rəsmi Moskva onu açıq dilə gətirməsə də, rusiyalı ekspertlər yetərincə sərbəst bəyan etməyə başlayıblar. Bununla bir daha təsdiqlənmiş olur ki, Qarabağ konfliktinin indiyədək həll olunmamasının əsas baiskarı məhz Kremldir. Çünki bu münaqişə ona Ermənistanla Azərbaycanı öz təsir dairəsində saxlamaq üçün hava-su kimi vacibdir.

Odur ki, rəsmi Bakı bizə şirnikləndirici görünən bu kimi açıqlamalara və hədələrə maksimum diqqətli yanaşmalı, Dağlıq Qarabağ problemindən sırf Rusiya maraqları naminə istifadəyə razı olmamalıdır. Bir amil də ciddiyə alınmalıdır ki, Kreml Ukraynadakı "səhvini" balaca Ermənistanda, özü də ona müttəfiq olan bir ölkədə əsla təkrarlamayacaq, əksinə, ehtimal böyükdür ki, Ukraynaya görə Ermənistanda Qərbdən siyasi revanş götürməyə çalışacaq.

***

Sözsüz ki, Ermənistanın zəifləməsi, Qarabağı geri almaq üçün yeni fürsətlərin yaranması Azərbaycana sərf edir. Ancaq bu zaman Rusiya amilini bütün ciddiyyi ilə nəzərə almaq zorundayıq. Yoxsa elə olmasın ki, Kreml Dağlıq Qarabağ hesabına əvvəlcə Ermənistanı cəzalandırsın, Ermənistanı ram edəndən sonra isə analoji üsulla - Qarabağ kartı hesabına Azərbaycana yeni sağalmaz zərbələr vursun.

Hər halda, hazırkı mərhələdə Moskvanı konfliktin nizamlanması deyil, onun vasitəsilə iki Güney Qafqaz ölkəsini, faktiki surətdə isə bütöv bölgəni öz siyasi-hərbi çətiri altında saxlamağı düşünür. Ən yaxşı halda Rusiyadan belə bəyanatlar səslənir ki, guya Dağlıq Qarabağ ixtilafının həlli Azərbaycan da Ermənistan kimi Avrasiya İqtisadi Birliyinə, Gömrük İttifaqına qoşulandan sonra mümkünləşə bilər.

Təbii ki, ilğımdır. Ona görə ki, Azərbaycan SSRİ tərkibində bu variantın perspektivsizliyinə azı, bir dəfə əmin olub. Yəni nəticəsi olmayan yol bir dəfə artıq keçilib. Bu yerdə həmçinin həmin o Sergey Markovun Azərbaycanın 7 rayonunun azad edilməsi vacibliyi haqda söylədikləri yada düşür. Rəsmi Bakıya xoş gəlmək üçün son zamanlar buna bənzər açıqlamalar bəzi rusiyalı deputatların dilindən də eşidilib.

Belə bəyanatlara inanmaq olarmı, əgər Kreml rəsmiləri bu barədə heç nə söyləmirlərsə?

Yəqin ki, yox. Biz hələ onu demirik ki, Moskvanın rəsmi zəmanətinin özü də hələ hər şey demək deyil. Necə ki, Rusiya 1994-cü ildə "nüvə silahı əvəzinə Ukraynanın müstəqilliyi və suverenliyi" aktına *(Memorandum)* imza atsa da, 20 il sonra - 2014-cü ildə Krımı işğal eləməklə öz yazılı zəmanətinə (!) xilaf çıxdı. Rusiya 20 il gözləməyə də bilər.

❑ **Siyasət şöbəsi**

# Kreml və Ağ Ev Qarabağ məsələsində eyni mövqedədir?

## Elxan Şahinoğlu: "Görünür, həm ABŞ, həm də Rusiya üçün münaqişənin dondurulmuş vəziyyətdə qalması sərfəlidir"

**Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ABŞ və Rusiya arasında heç bir ciddi fikir ayrılığı yoxdur. Bu sözləri ötən həftə Bakıda olan ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik "Turan" agentliyinə müsahibəsində deyib. Amerikalı həmsədr deyib ki, Moskva və Vaşinqton arasında Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hər hansı fikri ayrılığı yoxdur. Sitat: "Qarabağ məsələsi üzrə ziddiyyət yoxdur, mən rusiyalı həmkarımla yaxşı işləyirəm və bizim aramızda tam anlaşma var".**



Elxan Şahinoğlu

Qeyd edək ki, hazırda Ukrayna məsələsi ilə əlaqədar olaraq ABŞ və Rusiya münasibətləri kəskin şəkildə pisləşib. ABŞ Rusiyaya qarşı sanksiyalar tətbiq edib, bundan başqa, NATO qüvvələrinin Şərqi Avropa ölkələrində cəmləşdirilməsi münasibətlərdə gərginliyə səbəb olub. Bütün bunların fonunda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tərəflər arasında fikir ayrılığının olmaması maraq doğurur. Doğrudanmı Vaşinqton və Moskva arasında münaqişə ilə bağlı fikir ayrılığı yoxdur və onlar anlaşa bilirlər?

**Siyasi şərhçi Elxan Şahinoğlu deyir ki, hazırkı vəziyyətdə Vaşinqton və Moskvanın münaqişəyə münasibəti həqiqətən də üst-üstə düşür:** "Hər ikisi sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıyır, əməldə isə Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması üçün həmsədr olaraq heç nə etmirlər. Bu mənada amerikalı həmsədr haqlıdır. Bu iki dövlət Ermənistana təzyiq etməyi də lazım bilmirlər. Görünür, həm ABŞ, həm də Rusiya üçün münaqişənin dondurulmuş vəziyyətdə qalması sərfəlidir".

**Bəs münaqişənin həlli forması, ərazi bütövlüyü və sair məsələlərdə yanaşmalar necədir? Hər iki tərəf eyni mövqeyə malikdir? E.Şahinoğlu deyir ki, bu məsələdə müəyyən yanaşma fərqləri olsa da, ümumi olaraq oxşar münasibət var:** "Rusiya Ermənistanın məğlub olmasını istəmir. Amerika üçün isə bunun elə bir fərqi yoxdur. Ancaq Amerika Dağlıq Qarabağı geri qaytaran Azərbaycanın Cənubi Qafqazda lider dövlət olmasında da o qədər maraqlı deyil. Çünki güclü Azərbaycan ABŞ-ın yox, Türkiyənin strateji müttəfiqidir. Vaşinqton isə Türkiyə və Azərbaycanı bölgənin iki nümunəvi dünyəvi müsəlman ölkəsi saysa da, bu tandemin güclənməsində də o qədər maraqlı deyil. Çünki Türkiyə-Azərbaycan tandemi Amerikanın hər istədiyini etməyəcək, təhlükəsizlik maraqları naminə Rusiya ilə də əməkdaşlıqda maraqlıdır. Amerikaya isə daha ondan asılı dövlətlər lazımdır. Azərbaycan nə Ukraynadır, nə də Gürcüstan. Hətta Azərbaycanda hakimiyyətə nə vaxtsa başqa qüvvələr gəlsələr belə, onlar da Amerika ilə münasibətlərdə zəruri məsafə saxlayacaq, Rusiya ilə münasibətləri korlamamağa çalışacaqlar".

❑ **KƏNAN**

# Erməniyə Azərbaycan kökəsi - Qarabağ əvəzinə...



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistanda baş verənlər həmişə xüsusi diqqətimizdə olmalıdır. Burası bəlli. Hətta işğal problemi aradan qalxsa da, Azərbaycan heç vaxt "çomağı əldən yerə" qoymalı deyil. Çünki qonşumuzun xislətini kim bilməsə də, biz çoxdan və yaxşı bilirik.**

İndilikdə ərazilərimizin 20 faizini işğal altında saxlayan qonşu ölkənin daxili durumunu izləmək, orada gedən prosesləri düzgün təhlil edib nəticələr çıxarmaq ən əvvəl ona görə vacibdir ki, təcavüzkar ölkəyə münasibətdə Azərbaycan doğru-düzgün strategiyasını qura bilsin.

Ermənistanda son yaşananlar isə Azərbaycan üçün bir neçə mühüm qənaəti daşlaşdırmış oldu: **1.** Ermənistan nəinki Rusiyanın hərbi-siyasi, eyni zamanda bütünlüklə iqtisadi və energetik asılılığında olan marionet ölkədir. **2.** Ermənistanın müstəqilliyi simvolik xarakterli olmaqla tamamən Kremlin iradəsinə bağlıdır və heç özünün daxili məsələlərində də söz sahibliyinə malik deyil.

Deməli, Qarabağ məsələsində bizim işğalçı ölkə ilə danışıq aparmağımızın, o sırada prezidentlər səviyyəsində görüşlərin hər hansı anlamı, yeri qalmır və ilğım xarakteri daşıyır. Danışıqlar vacibdirsə də, bu, Ermənistanın yiyəsi ilə - Moskva ilə aparıla bilər.

Ancaq İrəvanda spontan baş verən, heç bir siyasi qüvvənin önündə durmadığı kütləvi etirazlar göstərdi ki, Rusiya öz forpostuna bir elə arxayın da deyil. Bu xüsusda yetərincə maraqlı digər bir məqam diqqətdən yayınmadı: Ermənistandakı ictimai narazılıqların ən qızğın çağında Moskva Gümrüdə bu ilin yanvarında 7 nəfərlik erməni ailəsini güllələyərək qətlə yetirən rus hərbçisi Valeri Permyakovun istintaq işinin erməni tərəfinə təhvil verdi.

Düşünmək olardı ki, bununla Rusiya olduqca həssas bir məsələdə İrəvana reverans etməklə etirazların anti-Rusiya məcrasına yönəlməsinin önləməyə çalışır. Bəlkə də. Hərgah, Kremlin İrəvana təsir rıçaqları olduqca güclüdür. Bununla belə, hiss olunur ki, Moskva belə güclü asılılıq fonunda da Güney Qafqazdakı yeganə forpostu sarıdan əmin deyil.

Görünür, bu ehtimalın yaranmasında bir çox rusiyalı ekspertin Ermənistan olaylarında dərhal Qərb, Amerika izi axtarması az rol oynamayıb. Məsələn, Kremlə yaxın ekspert, prezident Vladimir Putinin etibarlı adamlarından sayılan Sergey Markov iddia edib ki, Ermənistanda baş verənlər bilavasitə ABŞ xüsusi xidmət orqanlarının işidir.

Politoloq Konstantin Fedorenko isə İrəvanı Moskvanın adından şantaj edərək deyib ki, "siyasi tələblər önə çıxsa, Rusiya mütləq Ermənistana təsirini artıracaq, Kreml ona Dağlıq Qarabağ vasitəsilə təzyiq göstərə bilər". Öz növbəsində deputat Valeri Raşkin belə bir açıqlama verib ki, "postsovet məkanında Rusiyanın faktiki, iki dostu qalıb - Ermənistan və Belarus, onları da Amerika bizdən almaq istəyir..."

Beləcə, xoflu Rusiya Ermənistana münasibətdə ənənəvi "qamçı və kökə" siyasətinə sadiqliyini bir daha ortaya qoyub. Bu günlərdə Rusiyadan Ermənistana elə onun özündən silah-sursat almaq üçün 200 milyon dollarlıq kredit ayırması da eyni siyasətin tərkib hissəsidir.

İrəvan bu acınacaqlı aqibətdən, sonu uçurum olan bu labüd qismətdən və girovluqdan ta o vaxtadək qurtula bilməyəcək ki, öz gerçək müstəqilliyinə can atmayacaq, həqiqi müstəqilliyinə qovuşmayacaq, normal dövlət atributlarını özünə qaytarmayacaq. O zaman Qarabağ məsələsi də, Ermənistanın iqtisadi enerji problemi də qısa zamanda ədalətli həllini tapacaq. İlk növbədə də Azərbaycanın hesabına.

Bu xüsusda Bakı dəfələrlə erməni tərəfinə təklifini verib, o cümlədən Ermənistanın iri regional enerji layihələrinə qoşulmasının, öz gerçək müstəqilliyinə qovuşub da Rusiya girovluğundan qurtulmasının ən sadə yolunu göstərib: Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarına, düşmənçiliyə son verməkl

Yəni "kökəni" biz də verə bilərik - qamçısız-filansız. Keşkə erməni ağla gələydi... Top onun tərəfindədir - əgər ruslar onu oğurlamayıbsa...



# AO bitdi, şəhər nəqliyyatı əvvəlki “sifətinə” qayıdacaq?

## Kamran Əliyev: “Yol nəqliyyat sahəsindəki hazırkı vəziyyətin davam etməsi üçün dövlət orqanları əllərindən gələni edir”

**Avropa Oyunları(AO) zamanı tətbiq edilən müəyyən məhdudiyyətlər və qadağalar yol nəqliyyat sahəsində xeyli səliqə-sahman yaradıb. AO bitdiyi üçün sarı zolaqlardan bundan sonra necə istifadə olunacağı ilə bağlı müəyyən müzakirələr gedib, müxtəlif təkliflər səslənsə də, hələ ki konkret bir qərar yoxdur. AO zamanı tıxacların və qəzaların sayı da xeyli azalmışdı. Həmçinin əvvəllər ictimai nəqliyyatı necə gəldi sürən, sərnişinlərlə nəzakətsiz rəftar edən sürücülər qayda- qanunlara əməl etdilər. Oyunlar yekunlaşdıqdan sonra heç vaxt Bakını bu qədər sakit, tıxacsız görməyə öyrəşməmiş sakinləri indi yalnız bir sual düşündürür: Bakının bundan sonrakı vəziyyəti necə olacaq? İndiki qayda-qanun qorunub saxlanıla biləcəkmi, yoxsa Bakı əvvəlki “sifətinə” qayıdacaq?**

**Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev** yol nəqliyyat sahəsindəki hazırkı vəziyyətin davam etməsi üçün dövlət orqanlarının əllərindən gələni etdiyini bildirdi: “Avropa Oyunları zamanı yol və nəqliyyatda olan qayda-qanunun bundan sonra da davam etməsi üçün dövlət orqanları əlindən gələni əsirgəmir. Amma bunun üçün hərəkət iştirakçılarının özünün də belə bir istəyi olmalıdır. Sevindirici hal odur ki, Bakı sakinləri bu cür vəziyyətin daim hökm sürməsini daha çox arzulayırlar. Bizə Bakı sakinlərindən bununla bağlı çoxsaylı müraciətlər daxil olur. Əhali istəyir ki, Bakı qeydiyyatında olmayan avtomobillərə və yük maşınlarına olan bu məhdudiyyət daim davam etsin. Biz bununla bağlı konkret qərar qəbul edə bilmərik. Bu yalnız Nazirlər Kabinetinin Təhlükəsizlik Komissiyasının qərarı ilə həyata keçirilə bilər. Bununla bağlı müəyyən müzakirələr və təkliflər nəzərə alınıb səmərəli bir qərar qəbul edilə bilər”.

**Sarı zolaqlardan yalnız ictimai nəqliyyatın və təcili yardım maşınlarının istifadə etməsi məsələsinə gəlincə, K.Əliyev bununla bağlı müvafiq qərar qəbul edilərsə, bu təklifin həyata keçə biləcəyini dedi:** “Nə qədər ki, həmin hərəkət zolağına digər nəqliyyat vasitələrinin çıxmasına qadağalar qoyan yol nişanı mövcuddur, xüsusi buraxılışı olmayan sürücülər o zolağa çıxa bilməzlər. Bu qadağanın tətbiqi iyulun 1-dək qüvvədə olacaq. Daha sonra əgər hökumət bununla bağlı müvafiq qərar qəbul edərsə, həmin zolaqlar üzrə operativ nəqliyyat vasitələrinin hərəkəti mümkün ola bilər. Yenə də qeyd edim ki, bu, yalnız hökumətin müvafiq qərarından sonra ola bilər”.

**Nəqliyyat məsələləri üzrə mütəxəssis Məzahir Rüstəmov isə şəhərdə yenə də avtomobillərin sayının artacağını və tabesizlik yaranacağını bildirdi:** “Avropa Oyunlarına görə Bakı şəhərində maşınlardan az istifadə olunurdu. Bu dövrdə kimlərsə işini dayandırdı, kimlərsə işə getmədi. Ali məktəblər işlərini yekunlaşdırdılar, tələbələr çıxıb getdilər, sahibkarların müəyyən faizi öz fəaliyyətlərini dayandırdılar, növbəli iş rejiminə keçdilər. Bu tədbirlə əlaqədar bir çox şəxslər maşın sürməkdən könüllü olaraq imtina etdi. Bu o demək deyil ki, Bakı şəhərində hər şey öz qaydasına düşüb. Sadəcə olaraq, biz o tədbiri yola verməkdən ötrü bir növ həmrəylik göstərdik. Ancaq bu belə davam edə bilməz. Çünki hər kəsin işi var. Yayda ola bilər ki, müəyyən qədər nəqliyyatın azlığı olsun. Ancaq sentyabr ayından görəcəyik ki, şəhərdə aktivlik çoxalıb və bu dövrdə yenə də tabesizlik yaranacaq. Çünki Bakı şəhərində yetərincə maşın və hərəkət var”.

**Mütəxəssis yollarda tıxacın və sıxlığın qarşısını almaq üçün tək çözümü iri topdansatış və xidmət obyektlərinin şəhərdən kənara köçürülməsində gördüyünü dedi:** “Sarı xətlərin gələcəkdə strateji hərəkət üçün nəzərdə tutulması mümkünsüzdür. Çünki o yolların çəkilişi elə bir formadadır ki, bəzi yerlərdə yalnız hərəkətin davamı kimi çəkilib. Dayanıb sərnişin götürməyə, dayanacağa girməyə heç cürə imkan yoxdur. O sarı xətlər dayanacaqdan kənardadır və dayanacaqla əlaqəsi olmayan bir formada çəkilib. Həm də bu sarı xətlər hər yerdə yox, şəhərin müəyyən yerlərində çəkilib. Yollarda tıxacın qarşısı bu xətlərlə yox, yalnızca bir sıra müəssisələrin, topdansatış mərkəzlərinin şəhərdən kənara çıxarılması ilə nizamlana bilər. Nə qədər ki, iri topdansatış mərkəzləri, ticarət obyektləri və xidmət obyektləri şəhərin mərkəzindədir, bu problem qalacaq”.

❑ Günel MANAFLI

# “Bankların vəziyyəti dedikləri qədər pis deyil”

## Əkrəm Həsənov: “Banklar kreditlərlə bağlı güzəştə gedə bilərlər”...

**“Maliyyə vəziyyətinin qənaətbəxş olmadığını bank sübut etməlidir”. Hüquqşünas Əkrəm Həsənov Konstitusiya Məhkəməsinin dollar kreditləri ilə bağlı qərarından sonra uzanan prosesi dəyərləndirərkən belə deyib.**

O bildirib ki, vətəndaş bankın vəziyyətindən istifadə edərək güzəştlər tələb edə və kreditlə bağlı yaranmış problemi çözə bilər. “Konstitusiya Məhkəməsi məlum son qərarında banklara tapşırıb ki, maliyyə imkanları daxilində xarici valyutada kredit götürən vətəndaşlarımıza güzəştlər etsinlər. Təbii, banklarımız qanunlara riayət etmədikləri kimi, məhkəmənin qərarını da icra etmirlər. Əksinə, haqqını tələb edən vətəndaşlara hədə-qorxu gəlirlər. Ən yaxşı halda ağlayırlar ki, maliyyə imkanları pisdir, buna görə də guya güzəşt edə bilməzlər. Əslində maliyyə vəziyyətinin qənaətbəxş olmadığını bank sübut etməlidir. Maliyyə göstəricilərini açıqlamalı və onlara istinadən sübut etməlidir ki, güzəştə gedə bilməz, çünki əks halda müflis olar”,- deyə o qeyd edib.

**Ekspertin sözlərinə görə, bankın maliyyə vəziyyəti bir neçə amildən asılıdır:** “Amma sadələşdirsək, ən azı bir amil həlledicidir- bölüşdürülməmiş xalis mənfəət. Bu, bankın səhmdarlarına çatası məbləğdir. Deməli, bank bu məbləğdən məhrum olsa belə, fəaliyyəti üçün heç bir təhlükə olmayacaq.

Buna görə də borclu bankın sözügedən göstəricisini bilməli və ona istinad edərək güzəşt tələb etməlidir. Mərkəzi Bankın “Banklarda korporativ idarəetmə standartları”nın 14-cü bəndində bankların internet səhifəsində açıqlamalı olduqları məlumatların geniş siyahısı var. Bank binalarında bu barədə elan da yerləşdirilməlidir. Bu siyahıya rüblük maliyyə hesabatları da daxildir. Həmin hesabatda bölüşdürülməmiş xalis mənfəət də



təsbit edilir. Deməli, banklar cari ilin birinci rübü üzrə hesabatlarını internet səhifələrində yerləşdirməli idilər. Bunu ediblərmi? Əksər banklar bunu etməyib. Onların adlarını qeyd edirəm ki, Mərkəzi Bankın da xəbəri olsun və ölçü götürsün. AGBank, Amrahbank, AtaBank, Atrabank, Azərbaycan Beynəlxalq Bankı, Azərbaycan Sənaye Bankı, AzərTürkBank, Bank Avrasiya, Bank of Azerbaijan, Bank BTB, Bank Respublika, Bank Standard, Caspian Development Bank, DekaBank, Dəmirbank, Evrobank, Gəncəbank, Günaybank, XalqBank, KapitalBank, KredoBank, Muğanbank, Naxçıvanbank, Nikoil Bank, Pakistan Milli Bankı Bakı filialı, ParaBank, Rabitəbank, Bank Technique, YapiKrediBank, United Credit Bank, Zaminbank. Adıgedən bankların bu pozuntusu borcluların güzəşt tələb etmək hüququnu daha da möhkəmləndirir. Çünki bu fakt əvvələ, bankın qanunazidd fəaliyyətini sübut edir, digər tərəfdən isə nəyi isə gizlətməsindən xəbər verir. Yeri gəlmişkən, əmanətçilər də bu siyahıya diqqət yetirsin. Özü haqda məlumatı gizlədən banka nə dərəcədə etibar etmək olar- düşünsünlər. Yeni açılmış Ziraat Bank Azərbaycan istisna olmaqla, digər banklar sözügedən məlumatı açıqlayıblar. Onlardan yalnız ikisi zərərlə işlədiyini bəyan edib: Azərbaycan Kredit Bankı və Bank Melli İran Bakı filialı. Qalanlarının isə bölüşdürülməmiş xalis mənfəəti aşağıdakı kimidir: Accessbank 58 milyon manat, Unibank 55, Bank of Baku 53, Expressbank 16 milyon manatdan çox, Bank VTB (Azərbaycan) 13 milyona yaxın, PaşaBank 9 milyondan çox, AFB Bank 6 milyondan çox, Turanbank 4 milyona yaxın, NBC Bank 3 milyondan çox, Bank Silk Way 2 milyondan çox, Qafqaz İnkişaf Bankı 2 milyon manata yaxın. Əvvəla, bu banklar, yuxarıda sadalananlardan fərqli olaraq, ən azı şəffaf olduqlarına görə hörmətə layiqdirlər. Buna görə də onlara da tövsiyəm var. Hesabatlarına əsaslanaraq güzəşt edə bildikləri rəqəmləri rəsmi bəyan etsinlər və prosesə başlasınlar. Bu həm onlar, həm də borclu vətəndaşlar üçün yaxşı olar".

**Ə.Həsənov bildirib ki, borclu vətəndaşlar haqlarını tələb etməli, banklardan güzəşt tələb etməlidirlər:** “Xeyrinizə olmayan heç nəyə imza etməyin, banklardan qorxmayın, müdafiə olunmayın, əksinə, hücuma keçin. Özünüz görürsünüz ki, bankların maliyyə vəziyyəti dedikləri qədər pis deyil. Güzəştə gedə bilərlər. Həm də unutmayın, bankların sizə sırıdıqları kredit müqavilələrində çoxlu sayda qanun pozuntusu var. Buna görə də məhkəmə proseslərindən qorxmayın. Qoy banklar sizdən və məhkəmədən qorxsunlar”.

❑ RÖYA

# “Kredit borclarının silinməsinə ehtiyac var”

## Vüqar Bayramov: “Ailənin sosial statusundan asılı olaraq bunun tətbiq edilməsi mümkündür”

**Son günlər kiçik məbləğli kreditlərin dövlət tərəfindən qarşılanacağı ilə bağlı fikirlər yayılıb. Ekspertlər isə bildirirlər ki, əslində kredit borclarının dövlət tərəfindən deyil, ayrı-ayrı bankların özləri tərəfindən silinməsinə ehtiyac var. “Bir sıra inkişaf etməkdə olan ölkələrdə bankların kiçik həcmli borcların bağışlanması hallarına rast gəlinir. Dövlət tərəfindən borcların silinməsi həm dövlət üçün əlavə xərc deməkdir, həm də bu proses bankların və kredit borcu olanların məsuliyyətini azalda bilər”,- deyə ekspert Vüqar Bayramov bildirib.**



Onun sözlərinə görə, eyni zamanda bu, kredit ödənilməsinə məsuliyyətlə yanaşan borclu ilə həmin pulu məsuliyyətsiz xərcləyən arasında diskriminasiya olacaq: “Məsələn, təsəvvür edək ki, bir vətəndaşımız kredit götürüb və öz əmək haqqına qənaət edərək, yumşaq desək, bəzi hallarda ”uşağının boğazından kəsərək" həmin krediti vaxtı-vaxtında qaytarıb, digəri isə bankdan borc alib gedib Türkiyədə istirahət edib və sonradan da həmin pulu geri qaytarmayıb. Belə olan halda borcların silinməsi o deməkdir ki, sanki kredit ödənişlərinə məsuliyyətlə yanaşan doğru etməyib, borcla istirahət edən və onu geri ödəməyən düzgün edib. Çünki o, krediti məsuliyyətsiz xərclədi, amma onun borcu bağlandı. Əslində isə doğru edən öhdəliyinə məsuliyyətlə yanaşandır".

**Ekspert qeyd edib ki, borcların bağışlanması isə kredit götürənlərin əksəriyyətində “yenidən borcumu siləcəklər” arxayınçılığı yarada bilər ki, bu da bank sektorunda problemli kreditlərin həcmini kəskin artıra bilər:** “Düşünürəm ki, borcların bağışlanması ümumi şəkildə bütün kreditlərə deyil, fərdi olaraq ayrı-ayrı müqavilələrə tətbiq edilə bilər. Ailənin sosial statusundan asılı olaraq bunun tətbiq edilməsi mümkündür. Məsələn, elə ailə var ki, kredit götürüləndən sonra ailə başçısı dünyasını dəyişib və qəza keçirərək əmək qabiliyyətini itirib. Həmin ailələrə verilən kreditlərin banklar tərəfindən bağışlanması və ya güzəştlərin tətbiq edilməsi olduqca vacibdir. Bu həm də sosial korporativ məsuliyyət prinsipinə uyğundur. Bu baxımdan, bütün kreditlərin deyil, sosial statusundan asılı olaraq bir sıra borcların bağışlanması arzuolunandır”.

❑ RÖYA

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015

# İŞİD-in fəallığının arxasında maraqlı dövlətlər dayanır

## Arzu Nağıyev: “Yaxın Şərq bu gün yanan bir kürəyə bənzəyir, Qərb isə onu alovlandırır”

**Son bir ayda Suriyanın şimalında kürdlərin hücumları qarşısında geri çəkilən və mövqelərini əldən verən İŞİD qəflətən yenidən fəallaşdı. Ötən həftə qruplaşma bir-birinin ardınca qanlı hücumlar həyata keçirərək yüzlərlə insanı öldürdü. Cümə axşamı günü sübh tezdən saat 4.30 radələrində Kobani şəhərinə hücum edən İŞİD yaraqlıları qarşılarına çıxan hər kəsi öldürüblər. Əvvəlcə sərhəd məntəqəsi partladılıb, ardınca isə Azad Suriya Ordusu qruplaşmasının hərbi formasında olan İŞİD yaraqlıları evlərə daxil olaraq qarşılarına çıxan hər kəsi öldürüblər. Kobani rəhbərliyinin rəsmi məlumatına əsasən hücum nəticəsində Kobani və ətraf kəndlərdə qadın, uşaq və qocalar da daxil olmaqla, 202 nəfər öldürülüb, 250-dən artıq insan isə yaralanıb.**

Cümə günü isə İŞİD 3 qitədə terror hücumu həyata keçirdi. Küveytin paytaxtında şiə məscidinin partladılması nəticəsində 27 nəfər həlak oldu, 230 nəfər isə yaralandı. Tunisdə Aralıq dənizi sahilində yerləşən Susa şəhərində turistlərin istirahət etdiyi hotelin çimərliyinə daxil olan Seyfəddin Yaqubi adlı terrorçu 40 nəfəri öldürdü, 36 nəfəri isə yaraladı. 3-cü terror aktı Avropada - Fransada baş verdi. Lion şəhərində qaz emalı zavoduna hücum edən terrorçular bir nəfəri öldürdülər *(başını kəsərək)*, 2 nəfəri isə yaraladılar.

**İŞİD-in ağır zərbələr aldığı bir zamanda qəflətən fəallaşmasının səbəbi nədir? Terror qruplaşmasına güc verən hansı amillər oldu? Siyasi şərhçi, “Trend” İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyevin fikrincə, Yaxın Şərqdə hadisələrin gedişatı İŞİD üçün yeni fürsətlər yaradır. Ekspertə görə, qruplaşma bölgədə hərbi-siyasi vəziyyətdən istifadə edir:** “İŞİD-in yenidən dirçəlməsinə bir neçə səbəb var. Məlumdur ki, Səudiyyə Ərəbistanı və onun da qoşulduğu ittifaq Yəməndə husilərə qarşı apardığı əməliyyatlar nəticəsində İŞİD əvvəllər husilərə məxsus ərazilərdə nəzarəti ələ keçirdi. Yəni bir xaos yarandı. Bu gün Yaxın Şərqdə iki beynəlxalq ittifaq yaranıb, NATO, daha doğrusu, ABŞ və onun tərəfdarları, hansı ki, ancaq hava hücumları ilə məşğuldurlar və müsbət bir nəticə əldə edə bilmirlər, ikinci ittifaq isə Yəməndə qayda-qanun yaratmağa çalışan ərəb ölkələridir. Hələlik bu istiqamətdə də konkret nəticələr yoxdur. Yəni bu gün nəzarət itib və İŞİD bundan istifadə edir”.



**A.Nağıyevin fikrincə, İŞİD-in mövcudluğunu və gücünü qoruyub saxlamasında xarici dövlətlərin böyük rolu var:** “Bu gün Qərb demək olar ki, İŞİD-lə bağlı öz maraqlarından çıxış edir. Bir tərəfdən də sanki İranla əməkdaşlıq edir. Düşünürəm ki, Yaxın Şərq bu gün yanan bir kürəyə bənzəyir, Qərb isə onu alovlandırır. Çünki burada hərənin öz marağı və köməklik etdiyi qüvvələr var. Yəni istər İŞİD, istər "əl-Qaidə", istər ən-Nusra Cəbhəsi və ya Azad Suriya Ordusu olsun, məqsəd regionda stabilliyin olmamasıdır və məqsəd də təbii sərvətlərin və ya onun satışının ələ keçirilməsidir. Burada da hər dövlətin öz maraqları var.

Tarixi faktlara nəzər salanda yenə də Türkiyə faktoru qabarır və unutmaq olmaz ki, istər Yəmən, istərsə də Səudiyyə Ərəbistanı Osmanlı imperiyasının Hicaz və Yəmən vilayətlərində yaranıb. Belə davam etsə və Qərb dövlətləri bu proseslərə tək iqtisadi maraqlardan deyil, başqa cür yanaşmasalar, İŞİD-in iştirakı ilə bu proseslər böyük miqyaslı geosiyasi problemə çevriləcək. Göründüyü kimi, bu konfliktlərə birbaşa dəxli olmayan ölkələr də artıq bunu hiss edirlər. Son vaxtlar bir sıra dövlətlərdə baş verən terror və digər hadisələr də buna bariz misaldır".

❑ **KƏNAN**

# Avropa Birliyi Yunanıstanı sıxır

## Ekspertlər bildirirlər ki, bu ölkənin problemləri TAP-a təsir etməyəcək

**Yunanıstanda iyulun 5-də referendum keçiriləcək. Avropa İttifaqı tərəfindən artıq bir neçə ildir fəaliyyət göstərən Yunanıstanın maliyyələşdirilməsi proqramı iyunun 30-da başa çatır. Yekun vəsait yalnız Yunanıstan və onun kreditorları islahatlar paketinə dair razılığa gələ bilsələr, ayrıla bilər.**

**Avropa İttifaqının iqtisadi və maliyyə məsələləri üzrə komissarı Pyer Moskovisi** bildirib ki, “Yunanıstanla bağlı razılaşmanın əldə olunmasına "bir neçə santimetr" qalır". “Yunanıstan avrozonada qalmalıdır”, - deyə o vurğulayıb. P.Moskovisi həmçinin qeyd edib ki, Avropa Komissiyasının sədri Jan-Klod Yunker bu gün günorta saatlarında Yunanıstan hökuməti üçün yeni təkliflər hazırlayacaq: “Avropa Komissiyası daxil olmaqla, kreditorların nümayəndələri islahatlar proqramına dair təkliflərini Yunanıstan hökumətinə təqdim ediblər. Yunanıstan hökuməti də öz ideyalarını təqdim edib. Aİ tərəfindən artıq bir neçə ildir fəaliyyət göstərən Yunanıstanın maliyyələşdirilməsi proqramı iyunun 30-da başa çatır. Yekun vəsait yalnız Yunanıstan və onun kreditorları islahatlar paketinə dair razılığa gələ bilsələr, ayrıla bilər. Bu vəsait olmasa, avrozona tarixində ilk dəfə Yunanıstan suveren defolta uğraya bilər”.

Bu arada isə bildirilib ki, Avropa Mərkəzi Bankı (ECB) Yunanıstan banklarına maliyyə yardımını cümə günü razılaşdırılmış səviyyədə göstərməkdə davam edəcək. ECB bildirib ki, Fövqəladə Likvidlik Yardım (ELA) xəttinə dair qərarına yenidən baxmağa hazır vəziyyətdədir və Yunanıstan Bankı ilə sıx əlaqədə işləmək niyyətindədir. **“Yunanıstan üçün ELA xətti hələ açıqdır”**,- ECB sözçüsü BBC-yə bildirib.

BBC-nin iqtisadi məsələlər üzrə redaktoru Robert Pestonun dediyinə görə, ECB Yunanıstana əlavə yardım ayırmayacaq, bu isə öz növbəsində ölkənin maliyyə sistemində gərginliyi kəskinləşdirəcək. Yunanıstan banklarının işi birbaşa ELA xəttilə yardımın göstərilməsindən asılıdır və bu yardımın kəsilməsi Yunanıstanı avrozonanın xaricinə sürükləyə bilər.

ECB rəhbər şurası bazar günü məsələni müzakirə etməyə hazırlaşır. Ehtimal olunduğuna görə, “bazar ertəsi Yunanıstanda maliyyə resurslarına nəzarəti tənzimləmək üçün istirahət günü elan oluna bilər”.

Yunanıstan parlamenti beynəlxalq kreditorların yeni “xilasetmə” iqtisadi planının şərtlərinə dair referendumun keçirilməsi təklifini dəstəkləyib. Yunanıstanın baş naziri iyulun 5-də referendumun keçirilməsinə çağırıb. Baş nazir seçiciləri borc əvəzinə sərt islahat keçirilməsini tələb edən yeni planı rədd etməyə çağırıb. Bu arada Yunanıstanın beynəlxalq kreditorları ölkənin borcu ödəməsi üçün möhləti uzatmaq xahişini təmin etməyiblər. Yunanıstan iyunun 30-dək BVF-yə 1.6 milyard avro borcunu ödəməlidir, əks halda, ölkə defolt vəziyyətinə düşəcək. Ölkənin avrozonada qalması sual altındadır. Parlament qarşısında çıxış edən Alexis Tsipras kreditorların təklif etdiyi “xilasetmə” planının Yunanıstan üçün “təhqiredici” və “dözülməz” olduğunu qeyd edib.

Həmçinin bildirilir ki, Yunanıstanda banklar növbəti altı iş günü ərzində bağlı qalacaq, banklardan pul çıxarılmasının qarşısını almaq üçün kapital nəzarəti tətbiq olunacaq. Bunu Yunanıstanın baş naziri Aleksis Tsipras bildirib. Onun sözlərinə görə, bu tədbirlər



Yunanıstan Maliyyə Sabitliyi Şurasının iclasında razılaşdırılıb. Beynəlxalq kreditorlar ölkənin borcu üçün vaxtı uzatmayıb. Qoyulmuş vaxt isə iyunun 30-da başa çatır. O deyib ki, borc müddətinin az da olsa uzadılması xahişini bir daha irəli sürəcək. Beynəlxalq Valyuta Fondu (BVF) Yunanıstandakı böhranın nəzarətə götürüldüyünü və ölkəyə yardım göstərməyə hazır olduğunu bildirib. Ümumiyyətlə, Yunanıstan iyunun 30-dək Beynəlxalq Valyuta Fonduna (BVF) 1,7 milyard dollarlıq borcunu ödəməlidir. Ölkədə defolt təhlükəsi və ya avrozonadan çıxmaq ehtimalı güclənir. Baş nazir Aleksis Tsipras iyunun 26-da ölkəyə borc verilməsinin şərtlərinə dair iyulun 5-də referendum keçiriləcəyini bildirib. Bu açıqlamadan sonra əhali banklardan və bankomatlardan pullarını çıxarmağa başlayıb.

**Yerli ekspertlər isə bildirirlər ki, Yunanıstanla bağlı baş verənlərin TAP layihəsinə, Azərbaycan qazına təhlükəsi yoxdur. Ekspert Vüqar Bayramovun sözlərinə görə, Yunanıstanla bağlı yaranmış problemin regional enerji layihələrinə təsir göstərməsi istisnadır:** “Güman etmirəm ki, Yunanıstanda baş verənlər regional enerji layihələrinin reallaşmasına hər hansı ciddi, mənfi təsir göstərsin. Çünki nəzərə alsaq ki, Yunanıstan həm tranzit ölkədir, həm də ki, TAP layihəsindən, kəmərindən mavi qaz alacaq ölkədir. Yunanıstanın mavi qaza ehtiyacı var. Bu ölkədə baş verənlər Yunanıstanın etibarlı tərəfdaş kimi mövqeyinə təsir göstərir. O baxımdan Yunanıstanın maliyyə öhdəliklərini yerinə yetirməsi ilə bağlı çətinliklər yaradılır. Yunanıstanın mövcud vəziyyəti TAP layihəsi ilə bağlı müzakirələr aparılan zaman bəlli deyildi. Faktiki olaraq Yunanıstanın TAP layihəsinin maliyyələşməsinə ciddi maliyyə dəstəyi həyata keçirməsi gözlənilmirdi. O baxımdan, güman etmirəm ki, bu, TAP-a təsir göstərəcək. TAP layihəsinin reallaşmasına təsir imkanları hələlik məhduddur. Sözsüz bu baş verənlərin bütövlükdə regiona təsir imkanları kifayət qədər geniş olacaq. Yunanıstan TAP və digər enerji layihələrinin reallaşmasına hələlik təsir edəcək ölkə deyil”.

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, Yunanıstanı müvəqqəti xilas edəcəklər, amma bu ölkə faktiki iflas durumundadır:** “320 milyard avro borcu, populist hökuməti var. Avropa Birliyinin tək yolu borcları silib, Yunanıstanı avrozonadan çıxartmaqdır. Amma silinmiş borcun əvəzinə Yunanıstan Avropa Birliyində və NATO-da üzv kimi qalmalıdır. Başqa rasional çıxış yolu yoxdur, bu dəfə Yunanıstana ciddi güzəşt etsələr İtaliya, İspaniya, Portuqaliya da güzəşt tələb edəcəklər, bu 3 ölkənin toplam 3 trilyon borcu var, onlara güzəşt daha başa gələcək”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015


Xədicə İsmayılova

# Vəkilləri Xədicə İsmayılovanın cinayət işi ilə tanış olur

## Jurnalistin məhkəməsi avqustun əvvəlində başlana bilər

**Xəbər verdiyimiz kimi, iyunun 22-də Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsi jurnalist Xədicə İsmayılovanın cinayət işi üzrə istintaqın başa çatdığını elan edib. İyunun 23-dən başlayaraq Xədicə İsmayılova və vəkilləri ayrı-ayrılıqda cinayət işinin materialları ilə tanış olmağa başlamalıydılar. İki gün öncə musavat.com-a açıqlamasında X.İsmayılovanın vəkili Fariz Namazlı ölkə xaricində olduqları üçün istintaq materialları ilə tanış ola bilmədiklərini bildirmişdi.**

Dünən isə vəkil sosial şəbəkədəki profilində bununla bağlı maraqlı bir status paylaşdı: "Xədicə İsmayılovanın işi üzrə materiallarla tanış olanda Xədicənin qeydlərinə rast gəlirəm. Çox pozitivdir, hər qeydində gülüş doğuran məqamlar olur. "Ay nə gözəl", "belə bir hüquqmun olmasına sevindim", "Ən xoş arzularla", "Nə xoş sürpriz" və s. kimi qeydlər cinayət işi materiallarını bəzəyir".

"Yeni Müsavat"a açıqlamasında F.Namazlı bildirdi ki, iyunun 28-də istintaq materialları ilə tanışlığa başlayıb. Müsahibimizin sözlərinə görə, X.İsmayılovaya qarşı daha öncə Cinayət Məcəlləsinin 284.2 (dövlət sirrini yayma) maddəsi ilə irəli sürülən ittiham istintaq materiallarında yoxdur: "Çünki bu, sübut olunmadı. O vaxt məlumat var idi ki, guya Ceyhun Osmanlı Xədicə İsmayılovanın xaricilərlə oturub, dövlət sirrini təşkil edən məlumatları yaydığını eşidib. Bu, sübut edilmədi. Amma istintaq belə nəticəyə gəldi ki, Xədicə İsmayılovanın dövlət sirrini təşkil edən məlumatlar yayması sübut olunmayıb. Ona görə də o hissədə icraata xitam verildi".

**Amma X.İsmayılova barəsində Cinayət Məcəlləsinin 125-ci maddəsinə əsasən cinayət işi saxlanıb. Bu, özünü öldürmə həddinə çatdırma maddəsi ilə AzadlıqRadiosunun əməkdaşı Tural Mustafayevin şikayəti əsasında açılan cinayət işidir. Vəkil dedi ki, T.Mustafayev şikayətindən imtina etsə də, bu, nəzərə alınmayıb:** "Onun Baş Prokurorluğa ərizəsi var idi ki, mən Xədicə İsmayılovadan şikayətçi deyiləm, təzyiq altında ifadə vermişəm. Buna baxmayaraq, istintaq elə qiymətləndirib ki, bu, işə xitam verilməsinə əsas deyil. Odur ki, onun üzərində 125-ci maddə qalıb".

F.Namazlı dedi ki, qalan 4 maddə isə **AzadlıqRadiosu ilə bağlıdır. Müsahibimiz X.İsmayılovanın özü ilə görüşməyib:** "Özüm dünən idarədə tanış olmuşam. 15 cild cinayət işidir. 10-u ilə Xədicə tanış olub, amma 5-i qalıb. 2 əlavə cild 284-cü maddə ilə bağlıdır. Bu gün də onlarla tanış olacaq. Ayrılıqda tanış olur".

Müsahibimiz hesab edir ki, bu həftə ərzində cinayət işinin materiallarının incələnməsi yekunlaşsa, lazımi vəsatətlər veriləcək. İyulun əvvəllərində vəsatətlər göndərilsə, proses avqustun əvvəlində başlana bilər.

Bu arada Tural Mustafayev də sosial şəbəkədəki statusunda Ağır Cinayətlərə Dair İstintaq İdarəsinə çağırılması barədə yazıb. T.Mustafayevin yazdığına görə, müstəntiq Sənan Paşayev zəng edib, iyul ayının 1-də saat 10:00-da idarəyə dəvət edib: "Səbəb olaraq isə artıq istintaqın tam yekunlaşdığını bildirib".

Xədicə İsmayılovaya qarşı 2014-cü il dekabrın 5-də Cinayət Məcəlləsinin 125-ci maddəsi (özünü öldürmə həddinə çatdırma) ittiham irəli sürülüb. Elə həmin gün Səbayel Rayon Məhkəməsində hakim Elşad Şamayev onun barəsində həbs-qətimkan tədbiri seçib.

2015-c ilin fevralında jurnalistə qarşı Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə- külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1(vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui istifadə) maddələri ilə yeni ittihamlar elan edilib.

Bundan öncə isə jurnalistə qarşı Cinayət Məcəlləsinin 284.2 (dövlət sirrini yayma) maddəsi ilə ittiham irəli sürülmüşdü.

❑ **Sevinc TELMANQIZI**

# Rizvan Vahabovla çəkişən 7 vətəndaş Ali Məhkəmənin verəcəyi qərarı gözləyir

## Sabiq NKİ rəisi ən ali məhkəmə instansiyasına təsir göstərə biləcəkmi?

**İyunun 19-da Ali Məhkəmədə Neft Kəmərləri İdarəsinin (NKİ) sabiq rəisi Rizvan Vahabovla 7 vətəndaşın - Sevinc Rəcəbova, Təranə Hüseynova, Anar Əsədov, Vüsalə Xamıyeva, Zamiq Əhmədov, Əhliman Alıyev və Adil Kazımovun məhkəmə çəkişməsinə nöqtə qoyulmalı idi. Lakin qəfildən məhkəmə iclası təxirə salınıb. Təxirə salınmanın səbəbi 7 vətəndaşa bəlli deyil. Məhkəmədən onlara bu haqda bildirməyiblər. Məhkəmə iclasının nə vaxt baş tutacağı da aydın deyil.**

Ali Məhkəmədən şikayətçilərə işə bugünlərdə baxılacağını deyiblər, məhkəmə baxışının tarixini konkretləşdirməyiblər.

7 vətəndaş halal və qanuni yolla əldə etdikləri, dövlətin tanıdığı, dövlət idarələrinin verdiyi mülkiyyət haqda sənədləri əllərində ola-ola həyəcanla məhkəmənin qarşı tərəfin xeyrinə qərar çıxara biləcəyi "bu günləri" gözləyirlər. Amma ümidlərini də üzmürlər, prezidentə yazdıqları müraciətlərin, Ali Məhkəmənin ədalətli qərar verə biləcəyinə də inamları var. İnanırlar ki, Ali Məhkəmə onların xeyrinə qərar verəcək və 4 illik əzab-əziyyətli məhkəmə çəkişmələrinə son qoyulacaq...

Bura Azərbaycandır və məhkəmələrdə qanunların şah olmadığı dəfələrlə sübut olunub. Avropa Məhkəməsi ədalətsiz qərarlara görə ölkəni dəfələrlə cərimələyib.

Tərəflər arasında məhkəmə çəkişməsinin mahiyyəti haqda bir daha yazaq. Məsələ bundan ibarətdir ki, 2011-ci ildə 7 vətəndaş Murtuza Muxtarov küçəsi 145 ünvanındakı binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar. Sonradan onlar Rizvan Vahabovun qanunsuz iddiaları ilə rastlaşıblar.

Şikayətçilər **prezident İlham Əliyevə müraciətlərində qeyd edirlər ki, M.Muxtarov 145 ünvanında sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeyri-yaşayış sahələrini alıblar. Bir müddət keçdikdən sonra onları məhkəməyə dəvət ediblər və mülklərinin mübahisəli olduğunu bildiriblər.**

**"Möhtərəm prezident!**

Qeyri-qanuni olaraq bizim sahələrə həbs qoyaraq əmlakımızdan məhrum etdilər. Ancaq bura aidiyyəti olmayan başqa bir adama fəaliyyət göstərməyə icazə veriblər. Araşdırma vaxtı məlum olub ki, iddiani Qoloveşkina Anna adlı bir qadın qaldırıb və bütün bunların arxasında pulların sayı bilinməyən keçmiş məmur Rizvan Vahabov durur. Araşdırmalar vaxtı məlum olur ki, həmin sabiq məmurun külli miqdarda pulu, obyektləri, çoxlu evləri var. Daha sonra keçmiş məmurun təsiri ilə müqavilələri araşdırmaq üçün Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərirlər. Qeyd etmək istəyirik ki, bizə məxsus əmlakların hamısının Dövlət Reyestr İdarəsindən çıxarışı var. Ancaq onlara məxsus heç bir sənəd yoxdur. Araşdırma zamanı məlum oldu ki, A.Qoloveşkinanın adına olan müqavilələr, həmçinin kassa mədaxil orderləri saxtadır. Bu qadın tərəfindən "VOLBAK" MMC-yə bir qəpik belə pul ödənilməyib.

**Cənab prezident!**

Sizin "Cəmiyyəti narahat edən məsələlərlə bağlı konkret addımların atılması ilə bağlı" mayın 27-də "Buta" Sarayında Respublika günü münasibətilə rəsmi qəbulda çıxışınız bizi sevindirdi.

"Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bu, mənim çox səmimi fikirlərimdir. İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - Prezident, yaxud da ki, rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür. Biz buna yol verə bilmərik. Bunun qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır. Belə olarsa, o zaman işlər daha da sürətlə gedər və xoşagəlməz halların aradan qaldırılması üçün yeni bir mexanizm yarana bilər. Burada əlbəttə ki, dövlət idarəetmə prinsiplərində ciddi islahatlar aparılmalıdır və eyni zamanda ictimaiyyət də daha fəal olmalıdır. Biz bunu son vaxtlar görürük. Bizim ictimaiyyət hər hansı bir yerdə qanunsuzluqlar, pozuntular, ədalətsizliklər baş verdikdə dərhal reaksiya verir. Mən bunu alqışlayıram. Bu, bizə kömək edir. Bu canlı bağlantı daim olmalıdır və gücləndirilməlidir".

Respublikamızın belə inkişaf etdiyi bir vaxtda bizim məhkəmə-hüquq sisteminin fəaliyyətinə utanmazcasına müdaxilə edərək Azərbaycan vətəndaşlarına şər ataraq dövlət tərəfindən verilmiş çıxarışlar ola-ola bu çıxarışları ləğv elətdirmək istəyən və hansı ki, bəzi hakimlərin qeyri-ciddi mövqeyindən istifadə edərək bunlara nail olmaq istəyənlərə yardım edilir. Bütün bu işləri keçmiş dövlət məmuru olmuş Rizvan Vahabov məhkəmələrə təsir etməklə hər yerdə deyir ki, "Ali Məhkəmə mənim üçün heç bir şeydir" və bunu da onunla əsaslandırır ki, əvvəlki məhkəməni də onun təsiri ilə bizim əleyhimizə çıxarıblar. Rizvan Vahabov keçmiş əlaqələrindən və külli miqdarda olan pullarına arxalanaraq deyir ki, siz heç bir məhkəməni uda bilməzsiniz.

O, bu əməllərini həyata keçirmək üçün hətta ədliyyə nazirinin müavini Azər müəllimin *(Azər Cəfərov-E.M)* adından istifadə edir, deyir ki, o, mənim dostumdur və məhkəmələrə nəzarəti həyata keçirir. Ona görə də onun tapşırığından heç kəs çıxa bilməz. Çünki mən də onun bəzi tapşırıqlarını yerinə yetirirəm. Bundan başqa, o, Ali Məhkəmənin bəzi işçilərinin də adını hallandırır ki, burada da onun havadarları var. Bu da bir daha R.Vahabovun Ali Məhkəməyə və hakimlərə qarşı haqsızlığıdır. Həttа hörmətli prezidentimizin tapşırıqlarından sonra Rizvan Vahabovun və onun kimilərin bu cür müdaxilələri niyə aradan qaldırılmır? Ancaq bu gün Rizvan Vahabov və onun adamları bizə bildirirlər ki, bu dəfə də Ali Məhkəmədə sizə qarşı tədbir görüləcək və məhkəmə baş tutmamış qələbələrini qeyd edirlər" - deyə şikayətçilər prezidentə yazırlar.


Rizvan Vahabov

**Qeyd edirlər ki, R.Vahabov əllərində dövlət tərəfindən verilmiş çıxarışların olmasına baxmayaraq saxta sənədlərlə onları hədələyir:** "Rizvan Vahabov ailəmizi ac qoyacağını deyərək bizi hədələyir. Amma bizlər Konstitusiyanın 29-cu maddəsinə - mülkiyyət hüququmuza əsaslanıb, prezidentimizə arxayınıq".

Yada salaq ki, "Yeni Müsavat"a müraciət edən vətəndaşlar 2011-ci ildə Murtuza Muxtarov 145 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar.

Az sonra isə R.Vahabov qayınanası A.Qoloveşkina vasitəsilə vətəndaşların qanunauyğun şəkildə əldə etdikləri əmlakları onlardan almağa çalışıb. Vətəndaşlar həmin əmlakları qanuni şəkildə əldə etmələrini təsdiqləyən çıxarışları da redaksiyamıza təqdim ediblər. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində aparılan araşdırma zamanı məlum olub ki, R.Vahabovun 80 yaşlı qayınanasının məhkəmələrə təqdim etdiyi sənədlər saxtadır. 4 il davam edən məhkəmə çəkişmələrindən sonra iş növbəti dəfə Ali Məhkəməyə göndərilib. Vətəndaşlar inanırlar ki, bu məhkəmə instansiyasında nəhayət ki, ədalətli qərar veriləcək. Bununla da R.Vahabovun bir qanunsuzluğunun qarşısı alınmış olacaq...

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015



# "Qərbyönlü kursun çox etibarsız bir alternativi var"

## Şahin Cəfərli: "Demokratiya və insan haqları ilə bağlı Qərbdən yönələn tənqidlərə rəsmi Bakı özünüqoruma instinktinin təsiri ilə kəskin reaksiya verir"

**Azərbaycan hakimiyyətinin kəskin anti-Qərb ritorikasının fonunda Rusiya ilə yaxınlaşması Bakının qərbyönlü siyasi kursdan imtina ilə bağlı iddialara səbəb olub. Hakimiyyətin yüksək çinli məmurlarının Qərbə istiqamətli siyasətdən imtina, ənənəvi siyasi kursa yenidən baxılması ilə bağlı bəyanatları bu iddiaları qüvvətləndirir. Eyni zamanda paralel olaraq Azərbaycan Rusiya ilə yaxınlaşır və Moskva ilə əlaqələr sürətlə genişlənir.**

Daha əvvəl Bakının bu addımları siyasi manevr, Rusiyanın aqressiv hərbi-siyasi təzyiqlərini neytrallaşdırmaq cəhdi kimi izah edilirdisə, indi rəsmilər açıq şəkildə Qərbdən imtina ilə hədələyirlər. Doğrudanmı Bakın bu şəkildə kəskin dəyişikliyə getməyə hazırlaşır, yoxsa bu, sadəcə, siyasi oyundur?

**Siyasi şərhçi Şahin Cəfərli** deyir ki, Azərbaycanın öz xarici siyasət kursunda kardinal dəyişikliyə getməsi və Qərblə körpüləri yandırması istər dövlətin və xalqın ali mənafeləri, istərsə də hakimiyyətin öz maraqları baxımından ciddi yanlışlıq olardı: "Azərbaycan ATƏT-in, Avropa Şurasının üzvüdür, Avropa Birliyi ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq edir. Azərbaycan AB-yə strateji tərəfdaşlıq haqqında ikitərəfli saziş imzalamağı təklif edib. Avropa və Avroatlantik strukturlara inteqrasiya kursu Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında rəsmi şəkildə təsbit olunub. Bu konsepsiyada bildirilir ki, Azərbaycan Respublikası Avropa və Avroatlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlara inteqrasiya strateji məqsədini güdür. Ölkəmiz NATO ilə Sülh Naminə Tərəfdaşlıq və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində əməkdaşlıq edir. Müdafiə Nazirliyinin və Baş Qərargahın, qoşun növlərinin ştat-strukturu NATO standartlarına uyğunlaşdırılır.

Azərbaycanın ixrac neft-qaz boru kəmərləri üzü Qərbə doğru yönəlib, ölkənin xarici ticarətində Avropa Birliyi ölkələrinin payı böyükdür. Tərəflər arasında iqtisadi, xüsusən enerji sahəsində əməkdaşlıq problemsiz inkişaf edir".

**Ş.Cəfərli deyir ki, Azərbaycanın Qərblə münasibətlərində problem yalnız siyasi sahədə özünü göstərməyə başlayıb, bunun isə özəl səbəbləri var. Ancaq ekspertə görə, istənilən halda vəziyyətin Azərbaycanın siyasi kursunu dəyişməsi həddinə çatacağı gözlənilmir:** "Demokratiya və insan haqları ilə bağlı Qərbdən yönələn tənqidlərə rəsmi Bakı özünüqoruma instinktinin təsiri ilə kəskin reaksiya verir. Halbuki konstruktiv dialoqla, qarşılıqlı addımlarla bu problemləri aşmaq mümkün ola bilər. Xarici siyasət kursunun kəskin şəkildə dəyişə biləcəyi barədə səslənən bəyanatları bu gün üçün blef kimi qiymətləndirmək olar. Azərbaycan xarici siyasət kursunu dəyişib hara üz tutacaq? Bəli, bu gün Rusiya ilə münasibətlərdə yaxınlaşma müşahidə olunur, lakin bu yaxınlaşmanın hələlik hər hansı müqavilə-hüquq bazası yoxdur. Rusiya Azərbaycana nə vəd edə bilər? Azərbaycanın 1 saylı problemi olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Moskvanın siyasətində ciddi dəyişiklik hələ də sezilmir və iki ölkə münasibətlərinin xarakterini nəzərə aldıqda belə bir dəyişikliyin baş verməsini ummaq və gözləmək də sadəlövhlük olardı. Rusiya işğalçı Ermənistanla müttəfiqlik münasibətlərini daha da gücləndirməkdədir. Bir neçə gün əvvəl iki ölkə hökumətlərarası komissiyasının İrəvanda keçirilən iclasında Rusiyanın Ermənistana 200 milyon dollar güzəştli kredit ayırmasına dair saziş imzalanıb və bu vəsaitin Ermənistan ordusu üçün müasir silah sistemlərinin alınmasına sərf olunacağı açıqlanıb. Rusiya istər ikitərəfli, istərsə də kollektiv müqavilələr çərçivəsində Ermənistanın təhlükəsizliyini təmin etmək vəzifəsini öz üzərinə götürüb. Ermənistan Rusiyanın siyasi-iqtisadi-hərbi inteqrasiya layihələrinin daimi iştirakçısıdır. Bu ölkədə Rusiya Silahlı Qüvvələrinin 102 saylı hərbi bazası uzunmüddətli əsasda dislokasiya olunub və bu amil Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində destruktiv rol oynayır. Çünki işğalçı ölkə masada özünü çox inamlı hiss edir və hər hansı kompromisə getmir. Aydındır ki, Rusiyanın bu dəstəyi olmasa, Azərbaycan öz torpaqlarını çoxdan azad edərdi, çünki Ermənistanın Azərbaycanla uzunmüddətli müharibə aparmaq üçün iqtisadi və insan resursları yetərli deyil".

**Ş.Cəfəliyə görə, bütün bunları nəzərə aldıqda Bakının xarici siyasət kursunda baş verə biləcək radikal dəyişiklik Azərbaycan üçün hər hansı müsbət perspektiv vəd etmir:** "Qərbyönlü kursun çox etibarsız bir alternativi var və o alternativə ümid bəsləyib addım atmaq kimsəyə fayda verməz. Bu, oyun yox, daha çox özünümüdafiədir. Hakimiyyət təzyiq qarşısında geri addım atdığı görüntüsü yaranmasını istəmir. Bu halda ondan başqa addımlar da tələb olunacağından ehtiyatlanır. Lakin qarşıdurmanı gücləndirməkdənsə masaya oturub problemləri və anlaşılmazlıqları müzakirə etmək daha məqbuldur".

**Ş.Cəfərlinin sözlərinə görə, Qərblə münasibətlərin pisləşməsi Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə mənfi təsir edə bilər**: "ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən 2-si Qərbi təmsil edir və münaqişənin həllində ABŞ və AB-nin rolu önəmlidir. Qərb bloku ilə münasibətləri korlamaq bizə bu baxımdan da sərfəli deyil. Düzdür, hazırda Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Rusiya ilə bərabər Qərbin mövqeyi də bizim üçün qaneedici sayıla bilməz. Lakin müqayisədə görürük ki, Qərb bu məsələdə daha konstruktivdir, ən azı Azərbaycanın ədalət axtarışı bu ölkələrdə müəyyən qədər nəticə verir. AŞ PA-nın, Almaniya Bundestaqının Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bizim mövqeyimizi dəstəkləyən qətnamələri var, ABŞ-ın ayrı-ayrı ştatlarının qanunvericilik orqanları Xocalı faciəsinə dair sənədlər qəbul edib. Bu yaxınlarda Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatasının "Çiraqov və digərləri Ermənistana qarşı" işi üzrə çıxardığı qərar da çox əhəmiyyətlidir. Rusiyanın qanunvericilik orqanı, məhkəmələri bu tip qərarlar qəbul etməyib və edəcəkləri də gözlənilmir".

❑ **KƏNAN**

# İranın nüvə sazişi daha 6 ay ləngiyə bilər



## Cavad Zərif danışıqları yarımçıq qoyaraq məsləhətləşmək üçün Tehrana qayıtdı, Obama isə İran rəhbərliyinə məktub yazdı

**İran və "altılıq" ölkələri arasında iyunun 30-na imzalanması planlanan müqavilə təxirə düşür. Avstriyanın paytaxtı Vyanada keçirilən danışıqlar zamanı məlum olub ki, yekun sazişi planlaşdırıldığı kimi iyunun 30-da imzalamaq mümkün olmayacaq. İran mətbuatının məlumatına görə, xarici işlər naziri Cavad Zərif Vyanada XİN rəhbərləri ilə danışıqları yarımçıq qoyaraq məsləhətləşmə üçün Tehrana qayıdıb. Danışıqlar Zərif qayıtdıqdan sonra davam edəcək.**

Müzakirələrin iyulun 9-dək davam edəcəyi planlaşdırılır. Ancaq ümumilikdə ehtimal olunur ki, tərəflər danışıqların müddətini daha 3 və ya 6 ay uzadıblar. İranın nümayəndə heyətinin üzvü bildirib ki, "hələ görüləcək çox işi qalıb. Buna görə də tərəflər iyulun 1-dən sonra da müzakirələri davam etdirəcəklər ki, qaneedici razılıq əldə etsinlər".

Qeyd edək ki, anlaşmanın əldə olunmaması bir neçə mühüm məsələ ilə bağlı hələ də ortaq mövqenin tapılmamasıdır. Bunlar İrana qarşı sanksiyaların nə zaman ləğv olunması ilə bağlıdır. Məsələ burasındadır ki, ilk günlərdə bu mövzuda fikir ayrılığı ortaya çıxmışdı. İran tərəfi müqavilə imzalandıqdan dərhal sonra embarqoların ləğv olunmasını, ABŞ hökuməti isə tədricən aradan qaldırılacağını bəyan edirdi.

Razılaşdırılmayan daha bir mühüm məqam İranın raket hərbi komplekslərinin beynəlxalq yoxlamalara açılmasıdır. Qərb ölkələri İranın uzaqmənzilli raket sistemlərinin yoxlanılmasını tələb edirlər. İran isə hərbi obyektlərin təftiş olunmasının nüvə razılaşmasına aid olmadığını bildirir.

Razılaşdırılmayan daha bir məsələ isə İranın nüvə mütəxəssislərinin beynəlxalq ekspertlər tərəfindən sorğu-sual olunmasıdır. Çox güman ki, bununla ABŞ İranın nüvə sənayesi ilə bağlı detallı məlumat toplamağa çalışır. İran isə nüvə mütəxəssislərini amerikalı ekspertlərin dindirməsinə vermək istəmir. Hətta bununla bağlı ötən həftə İran parlamenti müvafiq qanun qəbul edib.

İranın nüvə məsələsi ilə bağlı danışıqların uzanması ölkə daxilində də birmənalı qarşılanmayıb. Hökumətə yaxın "islahatçı" media nüvə razılaşması mövzularına, ümumiyyətlə, diqqət ayırmadığı halda mühafizəkar camiədən ciddi təpkilər var. Bir sıra yerli müşahidəçilərə görə, nüvə danışıqlarının 3 və ya 6 ay uzadılması Həsən Ruhani komandasının marağındadır. Belə ki, bununla nüvə danışıqları İranda parlament seçkiləri dönəminə qədər davam edəcək. Və seçkilər öncəsi *(İranda parlament seçkiləri gələn ilin fevralında baş tutacaq - K.R.)* nüvə anlaşmasının əldə olunması "islahatçılar"ın mövqelərini möhkəmləndirəcək. Yəni mühafizəkar media hökumətin nüvə amilindən seçki kartı kimi istifadə etməyə çalışdığını iddia edir.

Bu arada mediada ABŞ prezidenti Barak Obamanın İran hakimiyyətinə məxfi məktub göndərdiyi haqda xəbərlər yayılıb. "Report" agentliyinin məlumatına görə, bu barədə Tehranda çıxan "Həmşəhri" qəzeti məlumat yayıb. Qəzetin yazdığına görə, İran parlamenti Rəyasət Heyətinin üzvü Mehrdad Bazrpaş faktı təsdiqləyib. O bildirib ki, məktubu ölkə rəhbərliyinə İranın qonşusu olan dövlətin nümayəndəsi çatdırıb. Onun sözlərinə görə, məktub İranın nüvə probleminə həsr edilib. Qəzet ehtimal edir ki, məktubu İran hakimiyyətinə İraqın baş naziri Heydər əl-İbadi çatdırıb.

Obamanın məktubu parlamentdə geniş müzakirələrə səbəb olub və hökumətə qarşı ittihamlara səbəb olub. Hələlik məktubun mətni açıqlanmasa da, məsələ parlamentdə qarşılıqlı ittihamlara səbəb olub. Məsələ ondadır ki, məktub barədə məlumatı ilk olaraq müxaliflər ortaya çıxarıblar. O cümlədən məktubun konkret olaraq kimə ünvanlandığı bilinməsə də, ehtimal olunur ki, daha əvvəl olduğu kimi, bu dəfə də Obama İran ali dini lideri Ayətullah Seyid Əli Xameneyiyə ünvanlayıb.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015







# Milli Sevgililər Günü...

## Əvəz Zeynallı: "30 iyun həm də böyük bir fəlsəfi məna daşıyır"



**Artıq 12 ildir ki, 30 iyun Azərbaycanda Sevgililər günü kimi qeyd edilir. Bu günün tarixi 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olan İlham və onun yoxluğuna dözə bilməyərək özünə qəsd edən həyat yoldaşı Fərizənin toy günü ilə əlaqədardır.**

30 iyunun Sevgililər Günü kimi qeyd olunması təşəbbüsü "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallıya məxsusdur. O, bu təklifini 2003-cü ildə irəli sürüb. 2003-cü ildən bu yana son 3 ili çıxmaq şərti ilə Azərbaycanda 30 iyun tarixində Ə.Zeynallı müxtəlif tədbirlər həyata keçirir və bu günün təbliğatını aparır. Bu il də 30 iyunla bağlı tədbirlər hazırlanıb.

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı 30 iyunla bağlı möhtəşəm tədbir keçirdiklərini bildirdi:** "Biz 2003-cü ildən bu yana hər il 30 iyunu Sevgililər günü kimi keçiririk. Bununla bağlı böyük tədbirlər olur. Son üç ildə obyektiv səbəblərdən bizim tədbirlərimizdə kəsintilər oldu. 3 illik fasilədən sonra biz həmin tədbirlərə yenidən start verdik. Düzdür, bir az hazırlıqsız olduq, istədiyimiz işləri tam görə bilmədik. Amma yenə də bu il Sevgililər gününü keçirməyə qərar verdik. Tədbirimiz iyunun 29-da "Xudafərin" şadlıq sarayının "Təbriz" zalında oldu. Tədbirimizdə bir sıra populyar müğənnilər də iştirak edib. Ayın 30-da da axşam saat 7-də sevgililərin gəzintisi olacaq. Gəzintimiz Şəhidlər Xiyabanının qarşısındakı meydançada başlayacaq".

**Ə.Zeynallı Azərbaycanda 14 fevralın da bəzi şəxslər tərəfindən hələ də sevgililər günü kimi keçirilməsi məsələsinə toxunaraq bu günün kökünün, fəlsəfəsinin, daşıdığı məna yükünün bizim kökümüzə heç bir bağlılığı olmadığını dedi:** «14 fevralın nə kökü, nə fəlsəfəsi, nə də ki daşıdığı anlam yükü bizə aid deyil. Şəxsən hər zaman işlədiyim, fəaliyyət göstərdiyim dairələrdə həmişə istəmişəm ki, bizim kökümüz özümüzə bağlı olsun. Çünki kökümüz özümüzə bağlı olmayanda biz köklü ola bilmirik. Ona görə də 30 iyun məsələsinə təkcə Sevgililər günü, gənclərin bayramı kimi yanaşılmasının tərəfdarı deyiləm. 30 iyun həm də böyük bir fəlsəfi məna daşıyır. Böyük milli mübarizədən yoğurulmuş gündür. 30 iyun haradan çıxıb? - 20 Yanvardan. 20 Yanvar bizim böyük müstəqillik hərəkatımızın önündəki ən böyük dastanlarımızdan biridir. Yəni 14 fevralın Sevgililər günü kimi qəbul olunmasının qarşısını almaq üçün 10-15 ildir ki, mübarizə aparırıq və həmişə də aparacağıq. 14 fevral ölkəmizdə artıq demək olar ki, qeyd edilmir. Mən çox şad olardım ki, başda sizin qəzet olmaqla Azərbaycan mətbuatı 30 iyuna sahib çıxsınlar. Bu günü təbliğ edək və millətimizə, gənclərimizə verək. Özünü "14 fevral"a aid hesab edənlər onu keçirsin. Mən etiraz etmirəm. Heç xristianlar bunu keçirmirlər. Katolik kilsəsinin özündə bu haqda ziddiyyətlər var. Sadəcə olaraq, onlar dünyada böyük bir mədəniyyət axını kimi bu günə bir məna verdilər ki, dünyanı mədəniyyət tərəfindən də istila etmək lazımdır. Əslində Sevgililər günü altında gənclərin bir-birini təbrik etməsinin pərdəarxasında həm də mədəniyyətlər savaşı anlayışı var. Biz ona görə 30 iyunu həmişə bu müstəvidə qiymətləndiririk ki, 30 iyun təkcə Azərbaycan üçün deyil. Malayziyada, İndoneziyada, İranda, Türkiyənin müəyyən yerlərində, böyük müsəlman dövlətlərində 14 fevralda mollalar camilərə qaçır, mülahizələr oxuyur. Səudiyyə Ərəbistanında gül satmaq qadağan edilib. Çünki müsəlman dünyasının əlində 14 fevralın qarşısını almağa başqa heç bir vasitə yoxdur. Amma biz baxın, necə rahat ömürlərini yazmış gənclərin həyatı ilə bunun qarşısını aldıq. İlhamla Fərizə sadə bir ömür yaşadılar. İlham millətin uğrunda öz həyatını qurban verdi. Fərizə də İlhamsız yaşamadığını bəyan etdi. Hesab edirəm ki, 14 fevral təkcə Azərbaycanda deyil, müsəlman ölkələrinin də ictimai həyatından 30 iyun vasitəsilə gedəcək".

❑ **Günel MANAFLI**

# Sevdiyi qızı bıçaqladı, qardaşını isə öldürdü



**Bakı Ağır Cinayətlər Məhkəməsində Rasim Mustafayevin cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Ənvər Seyidov sədrlik edib. Məhkəmə prosesi iyulun 2-ə kimi təxirə salınıb.**

Xatırladaq ki, cinayət hadisəsi bu il, fevral ayının 15-də Bibiheybət qəsəbəsi, 2-ci Bibiheybət döngəsi, ev 19-da baş verib. Hadisə nəticəsində həmin evdə yaşayan 33 yaşlı Hüseynova Türkan Elçin qızı və onun kiçik qardaşı, 24 yaşlı Elvin Hüseynov müxtəlif dərəcəli bədən xəsarətləri ilə 1 saylı xəstəxanaya çatdırılıb. Ağır dərəcəli bədən xəsarətləri almış Elvin Hüseynov yolda keçinib.

Məlum olub ki, bacı-qardaşı bıçaqlayan şəxs Rasim Mustafayev olub. Adıçəkilən şəxs barədə hadisədən bir müddət öncə Səbayel Rayon Polis İdarəsi 8-ci polis bölməsində araşdırma aparılırmış. Belə ki, R.Mustafayev xeyli müddət imiş ki, E.Hüseynlinin bacısı Türkan Hüseynova ilə münasibət yaratmağa çalışırmış. O, dəfələrlə 32 yaşlı xanıma yaxınlaşaraq ondan xoşu gəldiyini bildirib.

Lakin qarşı tərəf R.Mustafayevə rədd cavabı verib. Bundan sonra onların münasibətləri kəskinləşib və bir müddət əvvəl R.Mustafayev Türkanın evinə gələrək mübahisə edib, hətta onun anasına xəsarətlər yetirib. Bu səbəbdən ailə R.Mustafayevdən polisə şikayət edib. Araşdırmalar çərçivəsində R.Mustafayev polis tərəfindən saxlanılsa da, sonradan sərbəst buraxılıb.

Hadisə baş verən gecə R.Mustafayev evdə kimsənin olmadığı vaxt həyətə daxil olaraq gizlənib. Gecə saatlarında T.Hüseynova qardaşı və anası ilə evə qayıdanda R.Mustafayev onlara hücum edərək bıçaqlayıb. 24 yaşlı E.Hüseynli xəstəxanaya aparılarkən keçinib. Xəsarət alan T.Hüseynovaya isə ilkin tibbi yardım göstərilib.

# Tanınmış meyxanaçı Vahid Qədim axtarışa verildi




**Azərbaycanın tanınmış meyxanaçısı axtarışa verilib. APA-nın məlumatına görə, bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 1973-cü il təvəllüdlü Səfərov Vahid Ağabala oğlu Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilir.**

Vahid Qədim kimi tanınan V. Səfərov bu ilin yanvarından axtarışa verilib.

## Başsağlığı

**Paşayev Səyyad, Hüseynova Cəmilə Hicran xanıma və övladlarına, o cümlədən Adil, İlham və Yurikə Rüstəmov İlqar Rza oğlunun vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

***

**Əlsuvar bəy və ailəsi Hicran xanıma həyat yoldaşı Rüstəmov İlqar Rza oğlunun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- Çayek balı
- *Karkıra balı və s.*

**RAMAZAN AYI İLƏ ƏLQAƏDAR OLARAQ ORUC TUTANLARA ENDİRİM**

**Ünvan:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

YENİ MÜSAVAT
N 140 (6168) 30 iyun 2015

# Sərkisyan rejimi erməniləri Azərbaycanla qorxudur

## “Talana yox!” aksiyaları hakimiyyəti küncə sıxıb; azərbaycanlı ekspertlərdən ilginc reaksiyalar…

**Ermənistanda artıq ikinci həftədir “Talana yox!” tələbi ilə keçirilən etiraz aksiyası hakimiyyət daxilində də parçalanmalar yaradıb. Bir çox ekspertlər proseslərin əslində xaricdən idarə olunduğunu və fasiləsiz aksiyaların arxasında tamam başqa qüvvələrin dayandığını bildirirlər.**

Amma müşahidəçilər getdikcə güclənən və hətta xarici ölkələrdə də müdafiə olunan İrəvan etirazlarını qan gölündə boğmaq üçün addımın atılacağını da istisna etmirlər. Hesab olunur ki, əks təqdirdə, hadisələrin yekununda uduzan təkcə Sərkisyan rejimi olmayacaq, Moskvanın da dayaqları zəifləyəcək.

Bu arada 22 iyun iğtişaşları zamanı ağır yaralanan 27 yaşlı “Barilyus” qəzetinin fotomüxbiri Aram Aravelyanın ötən gün öldüyü məlum olub. Bu da aksiya iştirakçılarının qəzəbini artırıb. Avarelyanın polis tərəfindən döyüldüyü və xəstəxanaya gec çatdırıldığı bildirilir. Etirazçılar Aravelyanın ölümündə Serjik rejimini günahlandırıblar.

***

İyunun 29-na keçən gecə Ermənistan paytaxtında sakit keçib. Etirazlar fonunda isə Ermənistanın müdafiə naziri Seyran Ohanyan ölkənin cənub-qərb sərhədlərinə gəlib. Erməni KİV-lərinin yaydığı məlumata görə, nazir hərbçilərdə mənəvi-psixoloji ruh aşılamaq üçün onlarla söhbətlər aparıb, vəziyyətlə yaxından tanış olub.

Qeyd edək ki, erməni tərəf ötən həftə bu istiqamətdən Azərbaycanın Naxçıvandakı hərbi bölmələrinin açdığı atəş nəticəsində Ermənistanın bir əsgərinin öldüyü xəbərini yaymışdı. Azərbaycan Müdafiə Nazirliyi isə ermənilərin açıqlamasını yalanlayaraq cəbhənin bu istiqamətində tam sakitliyin hökm sürdüyünü bəyan edib.

Ekspertlər şübhə etmir ki, Ermənistan hakimiyyəti daxildəki gərginlikləri səngitmək üçün cəbhədə gərginlik görüntüsü yaratmağa və hətta Naxçıvan istiqamətindən də “vəziyyətin ağırlaşdığı” barədə mesaj verməyə cəhd göstərir. Bununla da rəsmi İrəvan xalqı meydandan sakit şəkildə dağıdacağını zənn edir.

Dünən o da bəlli olub ki, Rusiyanın “İnter RAO” Açıq Səhmdar Cəmiyyəti ona məxsus “Ermənistan elektrik şəbəkələri”ni erməni əsilli rusiyalı biznesmen Samvel Karapetyana satır. Bu barədə “Kommersant” yazıb. Qəzetin məlumatına görə, artıq “İnter RAO” bu istiqamətdə Karapetyan və erməni əsilli başqa bir rusiyalı biznesmenlə danışıqlar aparır.

***



**Düşmən ölkədə baş verənlər Azərbaycanda da diqqətlə izlənilir. Politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a dedi ki, Ermənistandakı olayların arxasında Qərbin dayandığına əmin deyil:** “Bəli, ABŞ və Avropa Birliyi Ermənistanın Rusiyanın təsir dairəsindən çıxmasını istəyir. Ancaq bu, heç də o demək deyil ki, Qərb İrəvanda kimlərisə öyrədib küçələrə sürükləyib. Qərb sonrakı mərhələdə dəyişiklik istəyənlərə dəstək verir. Ukraynada da belə olmuşdu. Rusiyada iddia edirlər ki, Ukraynada keçmiş prezident Yanukoviçi Vaşinqton və Brüssel devirib. Yanukoviçi onun qurduğu korrupsiya və idarəetmə şəbəkəsinə etiraz edən xalq devirdi, Qərb isə bu prosesdə ikincilərin tərəfində oldu. Ermənistanda da əgər xalq Sərkisyanı devirsə, Vaşinqton və Brüssel etirazçıların yanında olacaq. Ermənistanda Qərbin dəstəyi olsa da, olmasa da, qarşıdurma qaçılmazdır. Ermənistanın durumu Yanukoviç Ukraynasının durumundan elə ciddi fərqlənmir. Eyni səfalət, korrupsiya, klan idarətətmə üsulları qonşu ölkədə də var. Ona görə də hətta bu gün etiraz edənlər evlərinə dağılsalar belə, sabah başqa ağır sosial tələblərlə küçələrə çıxacaqları istisna deyil”.

**E.Şahinoğlu deyir ki, Rusiya hazırkı prezident Serj Sərkiysanı qorudu:** “Ancaq Rusiya əbədiyyətə qədər Ermənistanı dolandıran deyil. Erməni xalqının səfalət içində yaşaması Kremlin vecinə də deyil. Kreml üçün önəmli olan bu dilənçi kökündə yaşayan dövləti yanında tutmaqdır. Ermənilər özlərini tələyə salıblar. Ermənilər ikisindən birini seçməlidirlər: ya torpaqlarımızı boşaltmalıdırlar ki, Azərbaycan və Türkiyə ilə münasibətlər normallaşsın, bunun nəticəsində iqtisadi və sosial anlamda bir az nəfəs alsınlar, ya da indiki işğalçı siyasətlərini davam etdirib hər dəfə Moskvaya qəpik-quruş üçün dilənməlidirlər ki, gələn aya qədər acından ölməsinlər. Görünən odur ki, Ermənistandakı rejim və ona müxalif olan siyasi dairələr səfaləti və dilənməyi Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdan üstün tuturlar. Ancaq bu zaman unutduqları başlıca amil var: Biz onların ağır durumunu daha da ağırlaşdıracağıq. Cəbhə bölgəsində artan itkiləri buna sübutdur”.

**Politoloq Arzu Nağıyev də İrəvanda vəziyyətin nəzarətdən çıxacağını ehtimal edir:** “Səbəb odur ki, mitinqçilər elektrik enerjisinin qiymətinə prezident tərəfindən baxılacağı haqda bəyanatı, necə deyərlər, bir ”minnət” kimi qəbul etdilər və məsələnin həlli olmadığını bildirdilər. Artıq tələblər də dəyişməyə başlayıb, mitinqçilərə qarşı təzyiqlər edənlərin cəzalandırılması məsələsi, ən başlıcası Ermənistan gəncliyinin daha yaxşı yaşamağa layiq olmaları haqqında məsələlər gündəmə gətirilir".

**A.Nağıyevin sözlərinə görə, mitinqin dağılması xaotik baş vermir və onun idarə edildiyi qənaətinə gəlinir:** “Bu da məlumdur ki, dəfələrlə Avropa İttifaqının bayraqlarının qaldırılması, anti-Rusiya şüarlarının səslənməsi, Dağlıq Qarabağ ərazisindən hakimiyyətə sadiq silahlı birləşmələrin və hərbi hissələrin İrəvana gətirilməsi ciddi məsələlərin baş verə biləcəyinə bir siqnaldır. Ssenari belə deməyə əsas verir ki, mitinqlərin keçirilməsində əsas məqsəd kimi tənəzzülə uğramış iqtisadiyyatla və düzgün qurulmayan siyasətlə bağlı tələblər olsa da, bunun hakimiyyətin dəyişməsi üçün təşkil edildiyi daha qabarıq şəkildə hiss edilir. Bu proseslərə Qərbin bəyanatlardan başqa bir reaksiya verməməsi isə bir çox mətləblərdən xəbər verir”.

❑ **E.PAŞASOY**

# Rusiya Ermənistana kredit, yoxsa silah verdi…

## İki ölkə arasında bağlanan saziş ölkəmizdə ciddi narahatlıqla qarşılanıb; **Qabil Hüseynli:** “Ermənistan silaha pul xərcləmir”

**Rusiya Ermənistan ordusunun silahlandırılması ilə bağlı maliyyə vəsaiti ayırıb. Bu barədə düşmən ölkənin mətbuatı da yazıb. Xəbərə görə, qərar Ermənistan prezidenti Serj Sərkisyanın iqtisadi məsələlər üzrə Ermənistan-Rusiya Hökumətlərarası Komissiyanın Rusiyadan olan üzvləri ilə görüşü zamanı verilib.**

Bildirilir ki, Rusiyanın Ermənistana güzəştli şərtlərlə 200 milyon dollar ixracat krediti ayırmasına dair saziş imzalanıb.

Düşmən ölkəyə yüksək məbləğdə yardım edilməsi heç şübhəsiz ki, ölkəmizdə ciddi narahatlıqla qarşılanıb. Bağlanan sazişin hazırda Qərbə yox, daha çox Rusiyaya yönəlik siyasət yürüdən Azərbaycanla şimal qonşumuz arasında münasibətlərin gərginləşəcəyinə səbəb olacağı barədə mülahizələr var.

**Politoloq Qabil Hüseynli** hesab edir ki, hər iki ölkə arasında bağlanan sazişdə siyasi məqsədlər var: “Həyəcanın arxasında Rusiya şirkəti yaranır. Elektrik enerjisini qaldıran da Rusiyadır. Vəziyyət elə yaranıb ki, qaldırılan tarifi aşağı endirmək mümkün olmur. Verilən 200 milyondan Ermənistan köhnə borcları silmək üçün istifadə edir. Buradan əhaliyə, əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına heç nə qalmayıb. Özü də kredit indi yox, çoxdan verilib. Sarkisyan artıq 200 milyonu xərcləyib. Olsaydı, elektrik enerjisinin qiymətini aşağı endirərdi. Bəzi məlumatlara görə, Ermənistandakı hadisələri qızışdıran, əhalinin ayağa qalxmasına səbəb olan qərar Rusiyanın yuxarı elitasında verilib. Bundan əlavə, ayağa qalxan əhalini sakitləşdirmək, müəyyən çərçivəyə salmaq üçün Rusiya tərəfindən heç bir cəhd edilmir. Üstəlik, Rusiya Sərkisyanı müdafiə etmək istəmir, yaxud hələ ki belə bir qərara gəlməyib. Ona görə də əhali belə qərarlı və qətiyyətli görünür. Onsuz da Rusiyanın hərəkətlərini başa düşmək çox çətindir. Ermənistanda hakimiyyət komandasından qopmalar var. Bu, üsyançıları müdafiə edənlərə baxanda açıq-aşkar görünür. Fikrimcə, hadisələr Qarabağ klanının devrilməsinə doğru gedir. Mənə elə gəlir ki, Qarabağ münaqişəsinin həlli üçün şərait yetişəndə, yaşıl işıq yananda Ermənistanda hadisələr qarışdırılır. Ermənistanda vəziyyətin qarışması Rusiyanın Qarabağ problemini həll etmək iradəsini zəiflədə bilər. Bir sözlə, problemlərin həllinin uzanmasına səbəb ola bilər. Əsas olan budur”.



Qabil Hüseynli

**Qabil Hüseynli Rusiyanın Ermənistana silahı pulsuz verdiyini də qeyd etdi:** “Ermənistan silaha pul xərcləmir. Çünki Rusiya pulsuz verir. Ermənistan Rusiyadan silahı həmişə kredit adı ilə götürür, sonra da götürdüyünü qaytarmır”.

**Politoloq onu da bildirdi ki, bu saziş Azərbaycan-Rusiya münasibətlərinə təsir etməyəcək:** “Rusiya deyə bilər ki, silah satıram, başqa istiqamətlərdə də sənə kömək edirəm. Yəni tarazlığı gözləyirəm. Açığı, bu məsələni heç Rusiyanın qarşısında qaldırmarıq. Şübhəsiz ki, bizim üçün heç də yaxşı hal deyil. Çünki Ermənistanı xilas edən amildir. Ona görə də bu məsələlər ətrafında siyasi polemika aparmaq olmur”.

❑ **Cavanşir ABBASLI**

# Dünya 1 saniyə irəli gedir…

## Bu gün saat 23:59:59-da kompüterinizi 5 dəqiqəlik söndürün, yoxsa…

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi iyunun 30-da saat 23:59:59-da kompyuterləri söndürməyi tövsiyə edib. Buna səbəb isə dünya saatının 1 saniyə irəli çəkilməsi haqda verilən qərar və bunun da texnoloji sistemlərdə nasazlıq yaratma ehtimalının olması ilə bağlıdır. Yer kürəsinin fırlanmasını tədqiq edən Beynəlxalq Xidmət tərəfindən atılan bu addımın məqsədi Yer kürəsinin öz oxu ətrafında hərəkəti yavaşladığı üçün astronomik və atom saatı arasında vaxt hesablanması ilə bağlı ortaya çıxan ziddiyyətləri aradan qaldırmaqdır. Dünya saatında baş verəcək bu dəyişikliyin texnoloji sistemlərdə nasazlığın yaranmasına səbəb olması məsələsi də qaçılmazdır. Belə ki, 2012-ci ildə dünya saatına edilən oxşar dəyişikliklər nəticəsində bir sıra məşhur veb saytlarda nasazlıqlar və boşluqlar yaranıb. Kompüterdə vaxt tənzimləməsini həyata keçirən NTP protokolu öz vaxt ayarlarını atom saatına əsasən tənzimləyir. Nəticədə vaxtın 1 saniyə irəli çəkilməsini kompyuter qurğuları sistemdə səhvlik kimi başa düşüb öz fəaliyyətini dayandıra bilər. Bununla bağlı, mütəxəssislər əməliyyat sistemlərini təmin etmək məqsədilə iyunun 30-da saat 23:58-də 5 dəqiqəlik kompyuterləri söndürməyi tövsiyə edir.**

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 140 (6168) 30 iyun 2015



## “Qızıl üzüyün fəsadları və faydası”

Məlumdur ki, Məhəmməd Peygəmbər (s) hədislərində kişilərə qızıl gəzdirməyi qadağan edib. Bu yaxınlarda alimlər həmin qadağanın izahını veriblər. Onların fikrincə, qızıldan olan üzük sağlamlığa kifayət qədər ciddi təsir göstərir. Kişilərə qızıl üzük daim gəzdirmək olmaz. Çünki qiymətli metal vaxt keçdikcə oksidləşir və kimyəvi reaksiya məhsulları əmələ gətirir. Maraqlı odur ki, qızılın mənfi təsiri qadınlara aid deyil. Alimlər bunu qadın orqanizminin hormonal və cinsiyyət sisteminin xarici təsirlərdən yaxşı müdafiə olunması ilə izah edirlər.

Lakin qızıl üzüyün orqanizmə təsirinin digər mexanizmi də var. Məlumdur ki, barmaqların ucunda xeyli sinir ucları cəmlənib. Təbii ki, üzüyü taxarkən sinir impulslarının ötürülməsinə fiziki təsir göstərirk. Bu baxımdan əlavə, üzük xüsusilə təhlükəlidir. Ümumiyyətlə, qızıl üzüklərin osteoxondroz və radikulit xəstəlikləri doğurduğu deyilir. Belə ki, orta barmaqda narahat üzük gəzdirmək ateroskleroza və hipertoniyaya gətirib çıxarır, çeçələ barmağın yüklənməsi isə onikibarmaq bağırsağın patologiyası ilə nəticələnir.

Alimlərin fikrincə, qızıl nişan üzükləri qadın orqanizminə tənzimləyici təsir göstərir və orada gedən prosesləri fəallaşdırır. Bundan əlavə, ürək xəstəliklərindən, hipertoniyadan əziyyət çəkən xanımlara qızıl çox xeyirlidir.

# İftar süfrəsi rekordu

Misirin İsgəndəriyyə şəhərində qurulan 2,7 kilometr uzunluğunda iftar süfrəsi dünyanın ən uzun yemək masası olaraq tarixə keçib. Şəhər rəhbərliyi və qeyri-hökumət təşkilatlarının maddi yardımları ilə açılan iftar süfrəsi “Ginnesin Rekordlar kitabı”na düşüb. Şəhərin icra başçısı Hani Mesiri bir çox restoranın yeməkləri ilə iftara yardım göstərdiklərini və bu işin turistlərin də diqqətini cəlb etdiyini deyib. Qurulan süfrədə 7500 nəfər orucunu açıb. 650 nəfər isə iftar süfrəsi üçün çörək verib. Dünyanın ən uzun iftar süfrəsinin açılmasına bəzi tanınmış aşpazlar da kömək edib.



# Tətilə gedənə 7500 dollar



ABŞ-da fəaliyyət göstərən “Fullcontact” adlı texnologiya şirkətinin sahibi tətilə gedən işçilərinə 7500 dollar verir. 2012-ci ildən bəri verilən pul üçün şərtlər də var:

- Tətil müddətində iş yerindən gələn maillərə, zənglərə və mesajlara cavab vermək olmaz;
- Tətil müddətində işləmək olmaz;
- Sözün həqiqi mənasında istirahət ediləcək.

Şirkətin xalqla əlaqələr şöbəsinin müdiri Brad Mccarty ötən il “Vashinqton Post” qəzetinə verdiyi müsahibədə bunları deyib: “Çalışanların razı qalması bizim üçün daha dəyərlidir. Pul qazanmaqla birlikdə işçinin xoşbəxt olması, beyninin tam təmiz şəkildə geri qayıtması hər şeydən önəmlidir”.

## Qoxu ilə insanı oyandıran saat



Populyar hədiyyə saytı olan Kiskstarter qoxu ilə insanı oyandıran saat hazırlayıb. Fransız iş adamı Guillaume Rolland tərəfindən hazırlanan saat səhər oyanmaq şəklini dəyişdirmək üçün nəzərdə tutulub. “SensorVake” adı verilən saat şaftalı, çiyələk, kofe, darçın, ət və okean kimi bir çox qoxu ilə insanları oyadır. Bu qoxular bir kapsulun içərisində saata yerləşdirilir və 60 dəfə istifadə edilə bilir. 9 dollar qiymətli olan qoxular internetdə satılır və 2 ay istifadə edilə bilir. Bu qoxuların içərisində ən çox diqqət çəkəni isə ət qoxudur. Bir çoxları bu qoxuların səhər oyanarkən insana pis təsir edəcəyini düşünür.



## Şahzadə baxıcını gəzdirdi

Danimarkanın vəliəhd şahzadəsi Fredrixin həyat yoldaşı Şahzadə Mary uşaqlarının baxıcısını velosipedlə gəzdirərkən görünüb. Şahzadə Mary illərdir uşaqlarına baxan Mete Harnsen adlı qadını “Chiristiania velosipedi” adı verilən xüsusi velosipedlə Kopenhagen küçələrində gəzdirərkən bir avstriyalı şəxs tərəfindən şəkli çəkilib. Şəkli çəkən qadın jurnalistlərə verdiyi müsahibədə bunları deyib: “Yanımızdan velosipedlə keçən şahzadə Mary bizə gülümsədi. Əvvəlcə kim olduğunu başa düşmədim. Lakin tanıdıqdan sonra geri qayıtdım və onların şəklini çəkdim. Başqa şəkillər də çəkmək istəmişdim, amma özəl həyatına müdaxilə etmək istəmədim”.

Angela C. adlı qadın şahzadə olduqca təvazökar olduğu üçün çox sevildiyini deyib. Sadəcə, Şahzadə Mary deyil, vəliəhd Şahzadə Fredrix də tez-tez uşaqlarını velosipedlə gəzdirir.




**QOÇ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə fəaliyyətə ara verəsiniz. Bütün vaxtınızı gəzinti və əyləncələrə həsr edin. Məhəbbətdən ilham almağa çalışın. Spirtli içkidən uzaq olun.

**BUĞA** - Hansısa xoşagəlməzlik gözlənilmədiyi üçün qarşınızda duran vəzifələri həyata keçirməkdə heç bir problemlə üzləşməyəcəksiniz. Bir sözlə, gün ərzində bütün ixtiyar öz əlinizdədir.

**ƏKİZLƏR** - Qarşınızda olduqca düşərli bir gün durur. Daxilən vicdanlı və təmiz olduğunuzu sübut etdirməyiniz vacibdir. Çoxlarına sevinc bəxş edə bilərsiniz. Yalnız müqəddəs şeylər barədə düşünün.

**XƏRÇƏNG** - Ötən on gündə nail ola bilmədiyiniz maliyyə uğurlarına yetişmək üçün böyük şansınız var. Bunun üçün bürcünüzün “hakimiyyətdə” olmasından maksimum istifadə etməlisiniz. Acıdil olmayın.

**ŞİR** - Həddindən ziyadə maraqlı bir təqvimlə üz-üzəsiniz. Rastlaşdığınız adamların əksəriyyətindən sizə sevinc payı düşəcək. Başınızda dolaşan qorxunc və pis fikirlərdən daşının.

**QIZ** - Bu əsrarəngiz gündə daha çox müqəddəs işlərlə məşğul olun: ibadətlərinizi saxlamayın, hamıya xeyirxahlıq diləyin, bəd fikir yaymayın, qarşınıza çıxan şanslardan düzgün istifadə edin.

**TƏRƏZİ** - Təxminən saat 11-dən 15-ə qədər ayıq-sayıqlığınızı itirməsəniz, gün ərzində ovqatınıza mənfi təsir edəcək hadisələrlə rastlaşmayacaqsınız. Gün ərzində riskli işlərə başlamamalısınız.

**ƏQRƏB** - İşgüzar görüşlərdə iştirakınız gözlənilir. Belə sövdələşmələrdə ehtiyatlı olmağınız vacibdir. Əks təqdirdə məyus ola bilərsiniz. Tərəddüd etdiyiniz bütün işləri təxirə salın.

**OXATAN** - Gün ərzində qədər Ay bürcünüzdə olduğu üçün yeni və riskli işlərinizi təxirə salın. Səhhətinizdə xırda narahatçılıq gözlənilsə də, müqəddəs yerlərə getməklə bunu həll edə bilərsiniz.

**OĞLAQ** - Saat 16-ya qədər şanslı məqamlarla rastlaşacağınız güman olunur. İşgüzar danışıqlar aparmaq, köhnə planlara yenidən qayıtmaq uğurludur. Sonrakı saatlarda isə özünüzü qorumalısınız.

**SUTÖKƏN** - Yaxşı olar ki, bu təqvimi daha çox başqa ünvanlarda keçirəsiniz. Çünki öz evinizdə maraqlı heç nə olmayacaq. İş yerində gücünüz çatmayan adamlarla baş-başa gəlməkdən çəkinin.

**BALIQLAR** - İş barədə məhsuldar gün olmasa da, nahardan sonra darıxdığınız adamlarla görüşməyə çalışın. Uzaq yola çıxmaq uğurlu deyil. Sevgi münasibətlərinin tənzimlənməsində təşəbbüskarlığı ələ alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Parkdan almaz tapdı




Amerikanın Kolorado ştatında yaşayan Bobbi Oskarson Arkanzasdakı bir parkdan 8,2 karatlıq almaz qaş tapıb. Qadının tapdığı almaz dəyərli daşların üzərində qurulması ilə məşhurlaşan “Pig Pen” adlı parkda tapılan ən dəyərli daşlardan biridir. İri karatlı qaş 1972-ci ildən bəri tapılan ən dəyərli beşinci daş-qaşdır. Gənc qadın ilk dəfə gəldiyi parkda sadəcə 20 dəqiqəlik qazıntıdan sonra tapdığı almaza qardaşı oğlu Esperanzanın adını verib. İspan dilindən tərcümədə “ümid” mənasını verən ad son günlərdə hər kəsin dilindədir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300